Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

20-22 APREL 2019-cu il

№ 71 (3969)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

▫ səh. 7 ▫

# ERMƏNİSTAN İRANA «İQTİSADİ MÜHARİBƏ» ELAN ETMƏK ƏRƏFƏSİNDƏ - «SEMENT QALMAQALININ» SİYASİ MOTİVLƏRİ...

Azərbaycanda bu il də çörəyin qiyməti artmayacaq - Prezidentin kütləvi rifaha yönəlmiş daha bir qərarı... ■ səh. 10 ■

Böyük güclərin "Qarabağ rəqabəti" başlanır(?) ■ səh. 9 ■

Azərbaycan-Aİ sazişi radikal müxalifətin və ermənilərin hədəfində - "idarəçilik Rusiyadan gəlir" iddiası... ■ səh. 5 ■

Yeniyetmə qıza hücum etmiş "YAP-çı" deyilən gəncin radikal liderlərlə birgə şəkilləri yayıldı... ■ səh. 6 ■

Ermənistanın Gürcüstan üzərindən "nüvə qaçaqmalçılığı" planları rəsmən açıldı... ■ səh. 8 ■

Azərbaycanın indiki xarici ticarəti manatla bağlı vəziyyəti dəyişdi ■ səh. 10 ■

UNİBANK-ın Şahin adlı əməkdaşının Prezident Fərmanına qarşı özbaşınalığı - Maliyyə ... Palatasının 3451 manat kompensasiya təyin etdiyi jurnalistdən hələ də banka ödəniş tələb edilir... ■ səh. 12 ■

Azyaşlı məktəbliləri gecə klublarına buraxmaq kim(lər)in marağındadır... ■ səh. 15 ■




■ səh. 4 ■

## Azərbaycanda sabit hakimiyyət on illərlə davam edəcək - BP və SOCAR-ın 6 milyardlıq yeni sazişinin dünyaya aydın mesajı...



Parisin ardınca Nyu York kilsəsi, sonra isə - ... saxta «ümumdünya müsəlman qəsdinə» hazırlıq... ■ səh. 7 ■

Bakıda «kütləvi fahişəxanalar» anonsu - niyə konkret ünvanlar göstərilmir... ■ səh. 14 ■



Əhaliyə qarşı dəhşətli ərzaq cinayəti - inkubasiyadan qayıtmış yumurtalar pərakəndə satışa yönəldilir... ■ səh. 13 ■

■ səh. 3 ■ Bu il maaş və pensiyalar hansı həddə qədər qaldırıla bilər - Prezidentin sözünün icra olunacağına əminlik müzakirə açdı...



■ səh. 5 ■ Ermənistan XİN Məmmədyarovu birmənalı təkzib edir - Rusiyanın 2016-cı il Qarabağ planında erməniləri qıcıqlandıran məqamlar...



■ səh. 4 ■ Polisin elə ağır strukturları var ki, 300-400 manat maaş... - DİN sistemində maaş artımı zərurəti yetişdi...



■ səh. 6 ■ Fransada bir ildə 68 polis intihara cəhd edib - Azərbaycanı bəyənməyənlərə fakt...



■ səh. 14 ■ İctimai nəqliyyatda kameraların özü var, işi yoxdur...



## SOCAR ABŞ şirkətlərinin "Əsrin müqaviləsi"ndəki payını alır

**SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, ARDNŞ) və onun "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun işlənməsi layihəsi üzrə tərəfdaşları satışa çıxarılacaq payların alınması ilə bağlı tenderdə iştirak etmək niyyətindədir.**




Baki-xeber.com İnterfaksa istinadən xəbər verir ki, bunu SOCAR-ın prezidenti Rövnəq Abdullayev deyib.

"SOCAR və AÇG blokunun işlənməsi layihəsi üzrə xarici tərəfdaşlarımız satışa çıxarılacaq payların alınması ilə bağlı tenderdə iştirak etmək niyyətindədir", - deyə o, "Mərkəzi-Şərqi Azəri" layihəsi üzrə yekun investisiya qərarının imzalanması mərasimində qeyd edib.

R.Abdullayev "İnterfaks-Azərbaycan" agentliyinə bildirib ki, tenderdə iştirakla bağlı qərar SOCAR və xarici tərəfdaşlar tərəfindən bu gün qəbul edilib.

Xəbər verildiyi kimi, 2018-ci ilin dekabr ayında Amerikanın "Chevron" və "ExxonMobil" şirkətləri "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsi layihəsindəki paylarını satmağı planlaşdırdıqlarını bildiriblər.

## Yunus Oğuzun "Ovçu" romanı özbək dilinə tərcümə olundu

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə Azərbaycan Ordusunun şanlı qələbəsi ilə bitən aprel döyüşlərinə dair layihə həyata keçirilir.**



Tanınmış Azərbaycan yazıçısı, türkoloq alim Yunus Oğuzun aprel döyüşlərinə həsr etdiyi "Ovçu" romanı Daşkənddə özbək dilinə tərcümə olunub. Kitabın yaxın zamanlarda Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Daşkənddə nəşri və təqdimatının keçirilməsi nəzərdə tutulub. "Ovçu" romanını özbək dilinə alim, tərcüməçi Gülbahar Aşurova çevirib.

Azərbaycan tarixinin qəhrəmanlıq salnaməsi olan aprel döyüşləri dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Azərbaycan Respublikasının prezidenti, Ali Baş Komandan İlham Əliyev aprel qələbələrinin ildönümü ilə əlaqədar bildirib ki, bu döyüşlər bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın, ordumuzun gücünü göstərən qələbədir. Prezident İlham Əliyev vurğulamışdır ki, bu hadisələr bir daha göstərdi ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcək.

Yazıçı romanda tarixə nəzər salıb, ermənilərin yüz illərlə Azərbaycan xalqına qarşı apardığı işğalçılıq siyasəti, Azərbaycan cəmiyyətində böyük ruh yüksəkliyinə səbəb olan, xalqımızın qəhrəmanlıq və zəfər tarixinin şanlı səhifələrindən olan aprel döyüşləri və ya "dördgünlük müharibə"ni öz əsərində əks etdirmişdir.

"Bu tarixi roman Azərbaycanın Milli Qəhrəmanı Murad Mirzəyevdən bəhs etsə də, ümumən Qarabağ döyüşlərində şəhid olmuş bütün igid əsgərlərin əziz xatirəsinə bir elegiyadır. Qeyd edək ki, romanda Azərbaycanın dövlət başçısının obrazı xüsusi yer tutur.

Qeyd edək ki, "Ovçu" romanı qəhrəmanlığın təbliğində, zəfər tariximizin gənc nəslə təlqin edilməsində mühüm rol oynayır.

## Ekrem İmamoğlu azərbaycanlı jurnalist Mətləb Salahova təşəkkür etdi



**Türkiyədəki bələdiyyə seçkilərində İstanbul Böyükşəhər Bələdiyyəsinin sədri seçilən Ekrem İmamoğlu azərbaycanlı jurnalist Mətləb Salahova təşəkkür məktubu göndərib.**

Səmimi təbrik və arzulara görə təşəkkür edən E.İmamoğlu azərbaycanlı jurnalistin bu diqqətinin onun üçün dəyərli olduğunu, qardaş Azərbaycana sevgilərini diqqətə çatdırıb.

# Azərbaycan XİN Paşinyana status-kvo ilə bağlı vəziyyəti bir daha anlatdı...

**Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair Azərbaycan xarici işlər nazirinin erməni tərəfi və ya ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə keçiriləcək görüşlər və atılacaq addımlara dair şərhləri "3+2" formatında qəbul edilmiş birgə bəyanatlara tam uyğun olaraq edilir.**



Sözügedən bəyanatlar isə açıq şəkildə iki ölkə əhalisinin sülhə hazırlanması zərurətini dəstəkləyir. Ermənistan rəhbərliyi anlamalıdır ki, mövcud status-kvo qəbuledilməzdir, dayanıqlı deyil və bu proses həmişəlik davam edə bilməz.

Baki-xeber.com xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Leyla Abdullayeva deyib.

XİN rəsmisi bildirib: "Biz Ermənistan Xarici İşlər Nazirliyini "3+2" formatında qəbul edilmiş bəyanatlara qoşulmağa və daha praqmatik olmağa, eləcə də ATƏT-in Minsk Qrupunun həmsədrlərinin fəaliyyətinə etimad göstərməyə və dəstək nümayiş etdirməyə dəvət edirik.

Əgər Ermənistan tərəfi etimad quruculuğundan və danışıqlarda səmimiyyətin yaradılmasından bəhs edirsə, o zaman Azərbaycan tərəfində olduğu kimi onlar da qarşılıqlı etimadın yaradılmasına çalışmalı və buna uyğun şərhlər verməlidirlər. Eyni zamanda, onlar regionda sülh, sabitlik və rifahın yaradılması istiqamətindəki səylərə qoşulmalıdırlar".

# Aydın Quliyev: "AXCP və Müsavat yeni siyasi partiya ifraz etmək gücünü də tam itirdikləri üçün intriqalar burulğanına düşüblər"

**Bu gün ölkədə fəaliyyət göstərən radikal müxalifət partiyalarının dərin tənəzzülə uğradığı heç kimə sirr deyil. Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.**

Onun sözlərinə görə, bunun əlamətlərindən biri də həmin partiyalar tərəfindən üzvlər üçün saxta mühacirət sənədlərinin hazırlandığını sübut edən faktların artmasıdır:

"Bu partiyaların mərkəzi qərargahlarında qalmış beş-üç nəfər saxta sənəd düzəltməyi həm özləri üçün gəlir mənbəyinə çevirir, həm guya Azərbaycanda onların təqiblərə məruz qalması görüntüsünü yaradır, həm də müəyyən beynəlxalq dairələrin diqqətini Azərbaycan hakimiyyətinin üzərinə çəkmək istəyirlər. Bu günlərdə hətta Almaniyada saxta mühacirət sənədləri ilə gəlmiş bir neçə şəxsə qarşı cinayət işi açılması, bəzilərinin ölkədən deportasiya edilməsi xəbərlərinin yayılması təsadüf deyil. Bu faktlar radikal partiyaların - Müsavat, AXCP və digərlərinin cəmiyyətdən və xaricdən hər cür dəstək vasitələrini itirdiklərinə əyani sübutdur. Saxta mühacirət sənədlərinin satılması onların iflasının son görüntüsüdür".

A.Quliyev qeyd edib ki, 1992-1993-cü illərdə hakimiyyətdə olmuş və iflasa uğramış Azərbaycan Xalq Cəbhəsi ilə birbaşa bağlı olan və özünü onun varisləri sayan siyasi partiyalar indi tənəzzülün son mərhələsini böyük sürətlə keçirməkdədir:

"Bu gün AXCP və Müsavat özlərini radikal düşərgənin ən güclü və perspektivli siyasi partiyaları hesab etsələr də, reallıq tam əksinədir. 1992-1993-cü illərdə hakimiyyətdə olanda da, bütün sonrakı dövrlərdə də öz aralarında antaqonist ziddiyyət və intriqalar yaşayan bu iki partiya illər boyu ayrı-ayrılıqda hakimiyyətə doğru yürüdüklərini zənn etsələr də, əslində bir-birinə paralel iki ayrı yolla öz tarixi iflas sonluqlarına doğru gediblər. Bu gün Müsavat Partiyasında baş verənlər eynilə AXCP-dəki iflas proseslərinin başqa bir formada təzahürü olmaqla buna sübutdur. Bir neçə il öncə hər iki partiyadan müəyyən qruplar



ayrılaraq özlərini yeni siyasi partiyalar kimi elan etdilər və bu proses onların dağılmasının ilk böyük mərhələsi idi".

Onun sözlərinə görə, AXCP və Müsavat indi elə bir həddə çatıb ki, özlərindən yeni siyasi partiya ifraz etmək gücünü də tam itirdikləri üçün fərdlər arasında, iki-ikiyə intriqalar burulğanına düşüblər: "Konkret adlar çəkmədən də bu gün Müsavatdakı ikitərəfli çəkişmələrin necə kəskinləşdiyini hər kəs görür. Xüsusilə Müsavat Partiyasının daha çoxsaylı ikitərəfli çəkişmələrə meydan olmasının çox unikal səbəbləri var. Heç bir hakimiyyət perspektivinin olmadığını, hər gün zəiflədiyini, özünü lider sayan şəxslərlə sıravi üzvlər arasında xüsusi qabiliyyət fərqlərinin qalmadığını bütün müsavatçılar görür. Bu amillər partiya üzvlərinin bir-biri ilə toqquşmasının əsas səbəbidir. AXCP və Müsavat rəhbərlikləri bu prosesi guya hakimiyyətin oyunları kimi təqdim etsə də, əslində Müsavatın da, AXCP-nin də dağılması onların öz siyasətləri və daxillərindəki inamsızlıqlarla bağlıdır".

Ekspertin fikrincə, AXCP və Müsavat rəhbərlərinin böyük səhvlərindən biri də odur ki, onlar SSRİ dağılandan sonrakı müvəqqəti xaosdan istifadə edərək respublikalarda hakimiyyəti zəbt etmiş qrupların heç birinin sonradan hakimiyyətə qayıda bilmədiyini başa düşmək istəmədilər: "Müşahidələr göstərir ki, toqquşan sıravi partiya üzvləri bu həqiqəti artıq anlayıblar və başa düşüblər ki, xalq Azərbaycanda təsadüfi qüvvələrin hakimiyyətə gəlməsinə bir daha imkan verməyəcək. Müsavat və AXCP-nin dağılması qarşısıalınmaz prosesdir. Hər iki partiyadakı çəkişmələri bu məntiqlə izah etmək ən doğru yoldur".



**RF xarici işlər naziri Sergey Lavrov və**

# Lavrov ATƏT sədri ilə Qarabağ problemini müzakirə edəcək - aprelin 24-də...

**ATƏT Baş katibi Tomas Qreminger Qarabağ münaqişəsini aprelin 24-də müzakirə edəcək.**

Baki-xeber.com-un xəbərinə görə, bu barədə həftəlik brifinqdə Rusiya XİN-in sözçüsü Mariya Zaxarova jurnalistlərə bildirib. Onun sözlərinə görə, görüş aprelin 24-də Moskvada keçiriləcək illik beynəlxalq təhlükəsizlik konfransı çərçivəsində baş tutacaq. Zaxarova deyib ki, ATƏT Baş katibi beynəlxalq təhlükəsizlik üzrə VIII Moskva konfransında iştirak etmək üçün göstərilən tarixdə Moskvada səfərdə olacaq və ATƏT-in səlahiyyətində olan bir çox məsələlər müzakirəyə çıxarılacaq. "Bu sırada Avroatlantika məkanında hərbi-siyasi vəziyyətin deeskalasiyası, terrorizmlə, narkotəhlükə və kibertəhlükəsizliklə mübarizədə əməkdaşlıq kimi məsələlərin müzakirəsinə geniş yer ayrılacaq" - o deyib.

# Bu il maaş və pensiyalar hansı həddə qədər qaldırıla bilər - Prezidentin sözünün icra olunacağına əminlik müzakirə açdı...

**Bütün xarici təsirlərə baxmayaraq, son illər ərzində Azərbaycan inkişaf və təkmilləşməyə doğru addımlar atır. Müstəqilliyin başlanğıcında Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ciddi problemlərlə üzləşdi. Nəticədə ölkə humanitar fəlakət, bir milyon qaçqın və məcburi köçkünün mövcudluğu ilə üzləşdi.**

*"Artımların əsas səbəbi ölkə iqtisadiyyatının dinamik inkişafının təmin olunmasıdır"*

Buna baxmayaraq, ölkə iqtisadi böhranla uğurla mübarizə apardı və sabitliyə nail oldu. Azərbaycan öz inkişaf yolunu davam etdirir və bugünkü nailiyyətlər bir çox sahədə əldə edilmiş yüksək səviyyəni nümayiş etdirir. Bu gün bu faktı dünyanın aparıcı institutları və beynəlxalq maliyyə təşkilatları da təsdiq edirlər. Son zamanlar əhalinin sosial rifah halının gücləndirilməsi istiqamətində silsilə işlər həyata keçirilir. Minimum əməkhaqqının təqaüd və müavinətlərin artırılmasının şahidi oluruq. Əməkhaqqı və təqaüdlərin artırılması əhalinin sosial rifah halının yüksəlməsinə səbəb olur. Əhalinin sosial durumunun daha da yaxşılaşması üçün yenidən əməkhaqqı və təqaüdlərin artımı gözlənir. Bu xoş xəbəri Prezident İlham Əliyev aprelin 18-də Bakının Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində əsaslı şəkildə yenidən qurulan Neftçilər parkında yaradılan şəraitlə tanış olarkən əhaliyə bildirib. O qeyd edib ki, minimum əməkhaqqının, pensiyanın təxminən 40% qaldırılması önəmli addımdır. Artım böyük olsa da, bu bizi qane edə bilməz. Çünki bizdə maaşlar və pensiyalar bundan sonra da qaldırılacaq: "Müvafiq göstərişlər verilib, indi hökumətdə iş aparılır. Müvafiq nazirliklərə göstəriş verildi. Bizim maliyyə imkanlarımız artır. Çünki ölkəmizdə aparılan ciddi iqtisadi islahatlar bizə əlavə gəlirlər gətirir. Bu ilin əvvəlindən kifayət qədər böyük rəqəm artıq büdcəyə daxil oldu. Mənim göstərişimlə əlavə yığılan büdcə gəlirləri ilk növbədə vətəndaşların sosial müdafiəsinə istiqamətləndiriləcək. O cümlədən, maaşların, pensiyaların qaldırılmasına".

Prezident qeyd edib ki, minimum əməkhaqqı, minimum pensiyalar Azərbaycanda bundan sonra da qaldırılacaq ki, vətəndaşlar daha da yaxşı yaşasınlar.

***Aydın Hüseynov:** "Hər il 15-20 faiz civarında əməkhaqqı, təqaüd və müavinətlərin artırılması nəzərdə tutulur"*




Ölkə ictimaiyyəti və ekspertlər əməkhaqqı və təqaüdlərin artırılmasını müsbət qarşılayırlar. Əməkhaqqı və pensiyaların məbləğinin qaldırılmasının hansı civarda olacağını öyrənmək üçün araşdırma apardıq.

**Millət vəkili Aydın Hüseynov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, cari ilin yanvar ayından etibarən Prezident İlham Əliyevin sərəncamları ilə böyük sosial paket təqdim olundu:** "Məlum olduğu kimi, pensiya, müavinət, təqaüd, əməkhaqqı və minimum əməkhaqqının məbləği artdı. Artımın baş verməsinin səbəbini bəzi şəxslər müxtəlif formada izah etdilər. Bir qisim bunun "qara yollarla" baş verdiyini iddia etdi. Ancaq artımların əsas səbəbi ölkə iqtisadiyyatının dinamik inkişafının təmin olunmasıdır, beləliklə, dövlət büdcəsinə əlavə vəsaitlər daxil oldu".

Millət vəkilinin sözlərinə görə, hər il 15-20 faiz civarında əməkhaqqı, təqaüd və müavinətlərin artırılması nəzərdə tutulur. A.Hüseynov hesab edir ki, dövlət büdcəsinin icrası ilə bağlı səslənən fikirlər uğurla reallaşarsa, əməkhaqlarının həcmi təxminən 20 faiz civarında artar.

***Günel CƏLİLOVA***

# Ramil Usubov 433 iddiaçıdan 372 nəfəri seçdi...

**Aprelin 19-da Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov Əlahiddə Çevik Polis Alayında Bakı şəhər Baş Polis İdarəsinin tabeli orqanlarında və Sumqayıt, Abşeron şəhər, rayon polis idarələrində vakant sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.**

DİN-in Mətbuat xidmətindən "Bakı-Xəbər"ə verilən məlumata görə, aidiyyəti baş idarə, idarə və xidmət rəislərinin də iştirak etdiyi tədbirdə nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb. Ümumən, 433 iddiaçının arasından daha hazırlıqlı olan 372 nəfər seçilərək onların daxili işlər orqanlarında xidmətə qəbul olunmaları üçün Baş Kadrlar İdarəsinin rəhbərliyinə müvafiq tapşırıqlar verilib.

Namizədlər qarşısında çıxış edən nazir daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında keçirildiyini vurğulayıb. Ulu öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevinhər bir ölkənin gələcəyinin, inkişafının vətəndaşların intellektual səviyyəsindən, xüsusən yüksək texnologiyalara, innovasiyalara yiyələnmiş, mükəmməl təhsil almış savadlı, milli-mənəvi dəyərlərin daşıyıcısı olan vətənpərvər, dövlətçiliyə sadiq, müstəqilliyimizi, milli maraqlarımızı hər şeydən uca tutan gənclərdən asılı olduğunu dəfələrlə vurğuladıqlarını xatırladan nazir R.Usubov belə yüksək mənəvi, işgüzar keyfiyyətlərə malik kadrların dövlət idarəçiliyində daha geniş şəkildə təmsil olunmaları, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri üçün hər zaman əhəmiyyətli addımların atıldığını diqqətə çatdırıb. O, hazırkı seçimlərin də göstərilən sahədə uzun müddətdir həyata keçirilən məqsədyönlü dövlət siyasətinin növbəti bariz nümunəsi olduğunu bildirib.

Cənab Ramil Usubov bu gün ölkədə uğurla davam etdirilən cinayətkarlıqla qətiyyətli mübarizə, sabitliyin, əminamanlığın təmini, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı qorunması siyasətinin hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının da üzərinə böyük məsuliyyət qoyduğunu, hər bir əməkdaşın öhdəsinə düşən vəzifələri layiqincə yerinə yetirməsinin əhəmiyyətini qeyd edib.

*Nazir öz seçimində 4 meyarı əsas götürdü - fiziki hazırlıq, dünyagörüşü, bilik səviyyəsi və zahiri görkəm...*



Daxili işlər naziri vətəndaşlara xidmətin şərəfli bir vəzifə olduğunu, son illər ölkədə müşahidə edilən dinamik inkişafın təməlində xalq-iqtidar birliyinin, dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən hüquq-mühafizə siyasətinin, ictimai-siyasi sabitliyin dayandığını, bu istiqamətdə qazanılmış müsbət nəticələrin xalqımız tərəfindən hər zaman yüksək qiymətləndirildiyini xatırladıb.

Nazir xidmətə qəbul üçün seçilən gəncləri təbrik edərək, şərəfli polis adını uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini, təcrübələrini daim artırmalarını, öz üzərilərində səylə çalışmalarını, idmanla sıx məşğul olmalarını, müasir dövrün tələblərinə və çağırışlarına cavab verməlerini, informasiya texnologiyalarının ən son nailiyyətlərini praktikada fəal şəkildə tətbiq etmələrini, insan və vətəndaş hüquq və azadlıqlarına, onların şərəf və ləyaqətinə hörmətlə, həmçinin vətəndaşların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmalarını tövsiyə edib, gələcək xidməti fəaliyyətlərində onlara uğurlar arzulayıb.

# Azərbaycanda sabit hakimiyyət on illərlə davam edəcək - BP və SOCAR-ın 6 milyardlıq yeni sazişinin dünyaya aydın mesajı...

***İlham Şaban:** "Ümumilikdə, 43 milyard dollar investisiya qoyuluşu nəzərdə tutulursa, onda burada hakimiyyətin uzunömürlüyünə inam faktoru əsas götürülür"*

**"Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin (AÇG) işlənməsi üzrə Rəhbər Komitə (SOCAR, BP, "Chevron", INPEX, "Equinor", "ExxonMobil", TPAO, ITOCHU və "ONGC Videsh") Xəzər dənizinin Azərbaycan sektorunda nəhəng AÇG yatağının işlənməsinin növbəti mərhələsi olan "Mərkəzi-Şərqi Azəri" (MŞA) layihəsini təsdiqləyib.**

*"Bundan nəticə çıxaran investorlar Azərbaycan iqtisadiyyatında olacaq stabilliyə inanaraq belə mühüm addımı atırlar"*

BP-dən verilən məlumata görə, 6 milyard dollarlıq layihəyə yeni dəniz platforması və gündəlik 100 min barrel neft hasilatını təmin edəcək qurğular daxildir. Platformanın istismar müddəti ərzində 300 milyon barrel neftin hasil olunması proqnozlaşdırılır. İlk hasilatın başlaması 2023-cü ildə gözlənir.

Bu, 2017-ci ildə AÇG üzrə Hasilatın Pay Bölgüsü sazişinin (HPBS) 2049-cu ilə qədər uzadılmasından sonra ilk böyük investisiya qərarıdır. 1994-cü ildə birinci AÇG HPBS-nin imzalanmasından ötən 25 il ərizndə AÇG sahəsinin işlənməsinə, ümumilikdə, 36 milyard dollardan çox investisiya qoyulub.

Layihə üzrə tikinti işlərinə bu il başlanacaq. 2022-ci ilin ortalarına qədər davam edəcək tikinti prosesində yerli işçi resurslarından istifadə olunacaq. İnşaat işlərinin pik dövründə 8000 işçinin cəlb olunacağı gözlənir.

Hər halda, belə böyük bir layihəyə xarici investorların maraq göstərməsi iqtisadi ilə yanaşı, həm də siyasi və təhlükəsizlik faktorları ilə bağlıdır. Stabilliyə, hakimiyyətin dayanıqlı olmasına inam olmayan ölkələrlə bağlı heç vaxt belə layihələr reallaşdırıla bilməz. Ən azı, investorların buna marağı və güvəni olmaz. Bu baxımdan maraqlıdır, "Mərkəzi-Şərqi Azəri" layihəsinin imzalanmasını dünyanın Azərbaycandakı hakimiyyətin və mövcud sabitliyin uzun müddət olacağına inamının göstəricisi saymaq olarmı?




**Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bunu 2017-ci ilin 14 sentyabrında imzalanan müqavilənin davamı saymaq olar:** "Həmin vaxt "Azəri-Çıraq-Günəşli"nin 2049-cu ilə qədər uzadılması barədə yeni müqavilə imzalandı. Bakıda imzalanan "Mərkəzi-Şərqi Azəri" layihəsinin sanksiyalaşdırılması məhz həmin layihənin gerçəkləşdirilməsi yönündə atılan ən böyük addımdır. Yeni bir platforma tikiləcək. Həmin platformada 2022-ci ilin sonundan başlayaraq gündəlik 3 min barrel neft hasil ediləcək. Nəzərə alsaq ki, indiki layihənin qiyməti 6 milyarddır, amma 2017-2049-cu illərdə "Azəri-Çıraq-Günəşli"yə, ümumilikdə, 43 milyard dollar investisiya qoyuluşu nəzərdə tutulursa, onda burda hakimiyyətin uzunömürlüyünə inam faktoru əsas götürülür.

Bundan nəticə çıxaran investorlar Azərbaycan iqtisadiyyatında olacaq stabilliyə inanaraq belə mühüm addımı atırlar".

***Məhəmmədəli QƏRİBLİ***

# Polisin elə ağır strukturları var ki, 300-400 manat maaş... - DİN sistemində maaş artımı zərurəti yetişdi...

***Şəmsəddin Əliyev:** "Polislərin də məvaciblərinin artırılmasına zərurət yaranıb"*

**Son bir ildə, demək olar ki, bütün sosial müavinətlər, pensiya və əməkhaqları, büdcədən maliyyələşən bir sıra qurumların işçilərinin əməkhaqları artırılıb. Belə ki, təhsil, səhiyyə, mədəniyyət, idarəetmə və digər bu kimi qurumlarda çalışan şəxslərin aylıq məvacibləri artırılıb.**

*"Ölkə Prezidenti tərəfindən bununla bağlı bir normativ-hüquqi aktın imzalanacağına ümid böyükdür"*

Həmçinin, bəzi güc strukturlarında fəaliyyət göstərən şəxslərin də maaşlarının artırılması reallaşıb.

Hələlik maaş artımı edilməyən mühüm dövlət strukturlarından biri Daxili İşlər Nazirliyidir.

Bu gün ölkətə sabitliyin, ictimai asayişin təmin edilməsində DİN sistemində çalışanların müstəsna xidmətlərinin olması heç kəsə sirr deyil. Bu sistemdə elə bölmələr var ki, orada çalışan polis əməkdaşları, demək olar, məhdudiyyətsiz iş rejimində fəaliyyət göstərirlər. Faktiki olaraq, gecə-gündüz demədən ölkədə ictimai asayişin qorunmasına, sabitliyin təmin edilməsinə töhfə verirlər. İnsafən, qeyd etmək lazımdır ki, bu yöndə sıravi polis əməkdaşlarının, aşağı rütbəli zabit heyətinin əziyyəti, zəhməti kifayət qədər böyükdür. Onların bu sahədə yorulmaz fəaliyyəti sabitliyin təmin olunmasında mühüm rol oynayır. Bu da, öz növbəsində, ölkənin dinamik iqtisadi inkişafına öz töhfəsini verir. Çünki sabitlik təmin edilmədən hər hansı sosial-iqtisadi inkişaf mümkün deyil. Ancaq məhdudiyyətsiz vaxt rejimində, ağır şərtlərlə işləyən polislər var ki, onların məvacibləri 300-400 manat arasında dəyişir. O baxımdan, polis işçilərinin əməkhaqlarının artırılması zərurətinə ekspertlər necə yanaşırlar?

**Məsələyə münasibət bildirən "Polisə dəstək" İctimai Birliyinin rəhbəri Şəmsəddin Əliyevin sözlərinə görə, polis əməkdaşlarının məvaciblərinin artırılmasına ehtiyac var:** "Əvvəla Prezident İlham Əliyevin son aylar ərzində büdcədən maliyyələşən dövlət



qulluqçuları və digər sahələrdə çalışanların maaşlarının artırılması ilə bağlı qərarları bilavasitə vətəndaşların həyat şəraitinin yüksəldilməsinin əyani göstəricisidir. Burada dövlət büdcəsindən maliyyələşən digər xüsusi növ dövlət qulluqçuları da var. Ancaq yaxşı olardı ki, polislərin də məvacibləri artırılsın. Məsələn, daxili işlər orqanlarında xidmət göstərən və özlərinin narahat gecələri hesabına vətəndaşların təhlükəsizliyini təmin edən, ictimai qaydanı qoruyan polis əməkdaşlarının məvacibləri artırılmalıdır. Çünki lazım gələndə Vətənin müdafiəsi qədər öz canlarını fəda etmək ruhunda tərbiyələnən polis əməkdaşlarının müasir şəraitə uyğun əməkhaqları ilə təmin edilməsi vacibdir. Bir sözlə, polislərin də məvaciblərinin artırılmasına zərurət yaranıb. Düşünürəm ki, sosial sahədə həyata keçirilən islahatlardan biri də məhz Azərbaycan polisinin əməkhaqqının artırılması ilə bağlı olacaq. Ölkə Prezidenti tərəfindən bununla bağlı bir normativ-hüquqi aktın imzalanacağına ümid böyükdür. O üzdən, bununla bağlı gözləntim var".

***Namiq QULİYEV***

# Azərbaycan-Aİ sazişi radikal müxalifətin və ermənilərin hədəfində - "idarəçilik Rusiyadan gəlir" iddiası...

**Qabil Hüseynli:** *"Rusiyanın Azərbaycanla Aİ arasında imzalanacaq sazişin əleyhinə olması gün kimi aydındır"*

**Məlum olduğu kimi, Azərbaycanla Avropa İttifaqı arasında yeni sazişin imzalanacağı gözlənir. İmzalanacaq saziş ölkəmiz üçün mühüm əhəmiyyət kəsb edəcək. Aİ Azərbaycanın əsas tərəfdaşlarından biri olsa da, tərəflər arasında münasibətlər hələ də 1996-cı ildə imzalanmış sazişlə tənzimlənir.**

O vaxtdan bəri bir çox sahələrdə xeyli ciddi dəyişikliklər olub. O üzdən, sözügedən sənəd artıq köhnəlib və bir çox yeni reallığı əhatə etmir. Yeni sazişin nə qədər ciddi məsələ olması haqda təsəvvür yaratmaq üçün sadəcə deyək ki, onun hazırlanmasının sonuncu mərhələsinin üzərində 3 ildir intensiv iş gedirdi. Məlumata görə, sözügedən işlər artıq yekunlaşmaq üzrədir.

Ancaq bu arada diqqətçəkən məqam odur ki, Aİ ilə imzalanacaq sazişin vaxtı yaxınlaşdıca, ona qara yaxmağa çalışanlar da fəallaşırlar. Məqsədyönlü şəkildə xaricdə yaşayan bəzi "mühacirlər" bunun əleyhinə kampaniya aparırlar. Həmin "mühacirlər" xaricdə müxtəlif internet televiziyalarında və digər elektron mətbuat vasitələrində Azərbaycanın əleyhinə təbliğat kampaniyası aparırlar. Hər vasitə ilə belə bir sazişin imzalanmasının qarşısını almaq istəyirlər. İddia edirlər ki, guya Azərbaycanda insan hüquqları pozulur, demokratiya ilə bağlı ölkədə problemlər var və s.

Bu cür kampaniya aparanların içində keçmiş səfir Arif Məmmədov da var. O da, bəziləri kimi, bu qarayaxma kampaniyasına qoşulub. Görünən odur ki, bununla bağlı Azərbaycana yönəlik həqiqətə uyğun olmayan fikirlər səsləndirilir. Reallıq isə ondan ibarətdir ki, Azərbaycan Aİ ilə saziş imzalamağa layiq bir ölkədir. Çünki bununla bağlı tələb olunan parametrlərə cavab verir.

Belə fikirlər səslənir ki, Azərbaycanın Aİ ilə saziş imzalamasının əleyhinə təbliğat aparan "mühacirlər" özləri də bilmədən Rusiyanın təsir dairəsinə düşürlər. Çünki Rusiya, prinsipcə, postsovet ölkələrinin Avropaya inteqrasiyasını istəmir. Bunu öz maraqları üçün təhlükə hesab edir. Onu da qeyd edək ki, Aİ ilə saziş məsələsində Ermənistan mətbuatı da Azərbaycana qarşı qarayaxma kampaniyası aparır. Bir növ, bu yöndə aparılan anti-Azərbaycan kampaniyasının üst-üstə düşməsi təsadüfə oxşamır.

O baxımdan baş verənləri ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən politoloq Qabil Hüseynlinin sözlərinə görə, xaricdə yaşayanların bu yöndə tənqidləri əsassızdır:** "Çünki bununla bağlı səslənən tənqidlər doğru deyil. Ancaq, ümumilikdə, Rusiyanın Azərbaycanla Aİ arasında imzalanacaq sazişin əleyhinə olması gün kimi aydındır. Çünki aydın məsələdir ki, Rusiya Azərbaycanın Qərbə inteqrasiya olunmasını istəmir. Rusiya nəinki Azərbaycanın, digər postsovet ölkələrinin də Avropaya inteqrasiyasını istəmir. Müxtəlif kanallarla Aİ ilə Azərbaycan arasında imzalanacaq sazişi gözdən salmağa çalışır. Bir sıra xaricdə yaşayan şəxslərin sözügedən sazişə qarşı qarayaxma kampaniyası aparması anlaşılan deyil. Ona görə ki, gərək onlar Azərbaycanın Aİ-yə inteqrasiyasının tərəfdarı olsunlar. Çünki belə bir sazişin imzalanması Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir. Bu, Azərbaycanı mədəni dünyaya, sivilizasiyalı dünyaya qovuşdurmağın bir yoludur. Bu həm Azərbaycanın xarici ticarət əlaqələri üçün, həm də ölkə vətəndaşlarının vizasız gediş-gəlişi üçün mühüm əhəmiyyət kəsb edir. Yəni bununla bağlı yaxşı perspektivlər aça bilər. Bu nöqteyi-nəzərdən səslənən tənqidləri qəbul etmirəm. Azərbaycan bütün göstəricilərə görə Aİ ilə saziş imzalamağa layiqdir. Kimlərinsə bu məsələdə təxribat xarakterli fikirlər söyləməsi, faktiki olaraq, Azərbaycanın maraqlarına qarşı olan bir haldır. O üzdən, bununla bağlı səslənən ittihamları qəbul etmirəm".




*"Kimlərinsə bu məsələdə təxribat xarakterli fikirlər söyləməsi, faktiki olaraq, Azərbaycanın maraqlarına qarşı olan bir haldır"*

***Vidadi ORDAHALLI***

# Ermənistan XİN Məmmədyarovu birmənalı təkzib edir - Rusiyanın 2016-cı il Qarabağ planında erməniləri qıcıqlandıran məqamlar...

**Fikrət Sadıqov:** *"Moskvanın təklif etdiyi variantda "mərhələli plan" öz əksini tapır"*

**Rəsmi İrəvan Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun erməni həmkarı ilə Rusiya xarici işlər nazirinin də iştirak etdiyi Moskva görüşündə Rusiyanın 2016-cı ildəki təkliflərinin müzakirə olunduğu barədə dediklərinə münasibət bildirib.**



*"Bu səbəbdən də deyilən mövzudan kənar müzakirələrə belə aqressiv münasibət ortaya qoyurlar"*

Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Anna Naqdalyan erməni jurnalistlərlə söhbətində xatırladıb ki, görüşün gündəliyi Ermənistan, Azərbaycan və Rusiya xarici işlər nazirlərinin, eləcə də ATƏT-in Minsk Qrupunun həmsədrlərinin görüşdən dərhal sonrakı birgə bəyanatında dərc olunub:

"Birgə bəyanatlar məhz o hədəflə hazırlanır ki, görüşün bütün razılaşdırılmış fikirləri onların yekun mətnində əksini tapsın. Razılaşdırılmış mətnlə ziddiyyət təşkil edən kənar bəyanatların verilməsi qarşılıqlı etibarın möhkəmlənməsinə imkan vermir. Hazırda danışıqlar hansısa bir proqram ətrafında aparılmır. Bundan başqa, danışıqların əsas hissəsi bir-birinin mövqeləri ilə tanışlıq, onların aydınlaşdırılması və dəqiqləşdirilməsi üzərində gedir".

Maraqlıdır ki, Rusiya xarici işlər naziri Sergey Lavrov E.Məmmədyarovun Moskvada keçirilən görüşdə 2016-cı ildə irəli sürülən təkliflərin müzakirə olunduğunu bəyan etməsini təkzib etməyib: "Səhv etmirəmsə, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov görüşdən sonrakı müsahibələrinin birində xatırladıb ki, bu təkliflər müzakirə olunub. Buna görə mənim burada nəsə əlavə etməyə sözüm yoxdur".

Belə olan halda, niyə ermənilər 2016-cı ildə irəli sürülən təkliflərin müzakirə olunduğunu təsdiqləməkdən ehtiyat edirlər?

**Politoloq Fikrət Sadıqov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın bu məsələdən yayınması təsadüfi deyil:** "Kimin planı olmasından asılı olmayaraq, həm Madrid prinsiplərində, həm də Moskvanın təklif etdiyi variantda "mərhələli plan" öz əksini tapır. Ermənistanı ən çox qorxudan da elə bu plandır. Çünki onlar çalışırlar ki, plandan əvvəl Dağlıq Qarabağın guya "müstəqilliyini" tanıtsınlar, sonra müzakirələr davam etsin. Təbii ki, Azərbaycan heç vaxt buna razılıq verən deyil. Çünki dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ Azərbaycanın ərazi bütövlüyünə aiddir və bu məsələ müzakirə predmeti ola bilməz. Əlbəttə, bu prinsipiallıq Ermənistanı qıcıqlandırır. Bu səbəbdən də deyilən mövzudan kənar müzakirələrə belə aqressiv münasibət ortaya qoyurlar. Hər dəfə biz buna oxşar bəyant verəndə onlar təşvişə düşürlər. Əslində, 2016-cı illə bağlı deyilən məsələdə söhbət "mərhələli plan"dan gedib. Həmin plana əsasən işğal olunmuş ərazilər azad edilir. Sonra məcburi köçkünlər ora qayıdır və ən sonra Dağlıq Qarabağın statusu ilə bağlı müzakirə aparılır. Ermənistanı yalan danışmağa vadar edən bu məsələdir".

***Məhəmmədəli QƏRİBLİ***

# Yeniyetmə qıza hücum etmiş "YAP-çı" deyilən gəncin radikal liderlərlə birgə şəkilləri yayıldı...

**Artıq bir neçə gündür sosial şəbəkələrdə Tural Qarayev adlı şəxsin Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) sədrinin müavini Fuad Qəhrəmanlının qızına qarşı zorakılıq etməsi aktiv müzakirə edilir. Qeyd edək ki, siyasi mövqeyindən asılı olmayaraq, hərb bir şəxs azyaşlıya qarşı edilən hərəkəti pisləyir.**

***YAP:** "Tural Qarayevin Yeni Azərbaycan Partiyasının üzvü olması barədə sosial şəbəkələrdə yayılan məlumat həqiqətə uyğun deyil"*

***İsgəndər Həmidov:** "Azyaşlı qıza hücum edən adamla mənim əqidə birliyimdən söhbət belə gedə bilməz"*

***Ruslan İzzətli:** "Həmin adam doğrudan da hərəkata üzvlük üçün müraciət edib, amma..."*



Zorakılığı törədən şəxs barədə polisə şikayət daxil olduqdan sonra məsələ araşdırılıb və Tural Qarayev saxlanıb. O, İnzibati Xətalar Məcəlləsinin 510-cu (xırda xuliqanlıq) maddəsi ilə təqsirli bilinir.

Göründüyü kimi, ortada siyasi cinayət yoxdur. Ancaq buna baxmayaraq, bəzi şəxslər bütün cəhdlə məsələni siyasiləşdirməyə çalışırlar. Bəzi radikal mövqeli şəxslər cinayəti törədən şəxsin YAP üzvü olduğunu gündəmə gətirdilər və iddia etməyə başladılar ki, bu, birbaşa hakimiyyətin işidir. Hakim Yeni Azərbaycan Partiyası adından yayılan məlumatda isə bildirilir ki, onların Tural Qarayev adlı üzvü yoxdur: "Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) sədrinin müavini Fuad Qəhrəmanlının 14 yaşlı qızına hücum edən Tural Qarayevin Yeni Azərbaycan Partiyasının üzvü olması barədə sosial şəbəkələrdə yayılan məlumat həqiqətə uyğun deyil".

Bəyanatda qeyd olunur ki, T.Qarayevin YAP-a heç bir aidiyyəti yoxdur. Bu cür yalan məlumat məqsədli şəkildə yayılır və bu yolla partiyanın nüfuzuna xələl gətirməyə çalışırlar.

Ancaq Tural Qarayevə məxsus "Facebook" profilini incələyəndə məlum olur ki, bu adam daha çox müxalif cameəyə yaxınlığı ilə seçilib. Onun, demək olar ki, bütün müxalif liderlərlə fotoları var. Yayılan məlumatlarda onun müxalifətin bütün tədbirlərində yaxından iştirakı görünür.

Bu adamın yazdıqlarına inansaq, siyasi fəaliyyətinə Müsavatdan başlayıb. Sonra "D-18" hərəkatına keçib. Ardınca "ReAl" hərəkatına qoşulub. Burada da sabit əqidə sahibi olmayıb və Ümid Partiyasına üz tutub. Nəhayət, gəlib Yeni Azərbaycan partiyasına üzv olub. Yəni bu şəxsin YAP-çı olduğu iddiasının mənbəyinə əsaslansaq, adamın müxalifət düşərgəsində gəzmədiyi kol dibi qalmayıb. Bu, necə YAP-çıdır görəsən? Ümumiyyətlə, belə şəxsin profilində göstərdiyi məlumatlara inanmağa dəyərmi?

YAP bu məsələyə aydınlıq gətirdi. Bəs Turalla yaxından fotoları olan müxalif qurumlar niyə məsələyə münasibət bildirmək istəmirlər?

**Tural Qarayevlə birlikdə fotosu olan sabiq daxili işlər naziri İsgəndər Həmidov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, T.Qarayev adlı adam tanımır:** "Fuad Qəhrəmanlı mənim qardaşımdır. Onun balasına edilən hücüm elə bil mənim qardaşım balasına edilib. Bundan böyük əxlaqsızlıq ola bilməz. Ümumiyyətlə, kimin övladı olmasından asılı olmayaraq, azyaşlı qıza hücum edən adamla mənim əqidə birliyimdən söhbət belə gedə bilməz. Mənimlə fotosunun olmasına gəldikdə isə, belə faktın olması mümkündür. Biz tanınmış adamlarıq. Bəzən tədbirlərdə, məclislərdə bizimlə foto çəkdirmək istəyirlər. Çoxlarını heç tanımırıq da. Etiraz etmirik. Yəqin bu adam da elələrindən olub. Həmin fotonu bu məqamda yayanlar, haralarınsa sifarişini həyata keçirirlər. Məqsədləri də məni gözdən salmaqdır. Əminəm ki, F.Qəhrəmanlı belə provokasiyalara inanan deyil".

**T.Qarayevlə bir neçə fotosu olan digər şəxs, müxalifyönümlü "D-18" adlı hərəkatın rəhbəri Ruslan İzzətli ilə əlaqə saxladıq.** O, "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, həmin adam doğrudan da hərəkata üzvlük üçün müraciət edib: "Amma hərəkat onun üzvlüyünü təsdiqləməyib. Çünki biz müraciət edənlərin anketlərini araşdırırıq. Əgər bir adam başqa partiyanın üzvüdürsə, onu qəbul etmirik. T.Qarayevin də ərizəsinə bu səbəbdən rədd cavabı verilib. O ki, qaldı tədbirlərimizdə iştirakla onun bizimlə fotolarına, burda da qəribə nəsə yoxdur. Bizim tədbirlər açıq keçirilir, hər kəs iştirak edə bilər. Həmin adam da bu imkandan istifadə edib bizimlə foto çəkdirib. Onun atdığı addım isə cinayət və əxlaqsızlıqdır. Ən başlıcası isə, cəmiyyətə qarşı hörmətsizlikdir. Onun hərəkəti harada təmsil olunmağından asılı olmayaraq, heç kimə başucalığı gətirməz. Bu adam layiqli cəzasını almalıdır. Onun profilinə baxsanız görərsiniz ki, üzv olmadığı partiya yoxdur. Hətta özünün də partiyası olduğunu yazıb. Həmin məlumatların nə dərəcədə doğru olub-olmadığı barədə isə nəsə deyə bilmərəm. Mən yalnız özümüzə aid hissəyə aydınlıq gətirdim".

Bu araşdırmadan sonra məlum olur ki, T.Qarayev ya psixikası normal olmayan adamdır, ya da təxribatçı. Hər halda, buna ən dolğun cavabı hüquq-mühafizə orqanları verəcək.

*Məhəmmədəli QƏRİBLİ*

# Fransada bir ildə 68 polis intihara cəhd edib - Azərbaycanı bəyənməyənlərə fakt...

**Fransada polislərin və jandarmların intihar etməsi ilə bağlı xəbərlər yayılır. Son bir neçə aydır narahat günlər yaşayan və tez-tez polis zorakılığı ilə üzləşən Fransa cəmiyyəti bu ölkədə polislərin intihara əl atmasından da ciddi şəkildə əndişələnir.**




*"Əlbəttə, bu qədər polisin, jandarmın intihar etməsi yetərli qədər böyük rəqəmdir və Fransa hökumətinə düşünməyə əsas verir"*

***Əliməmməd Nuriyev:** "Ola bilsin, polislərin bu şəkildə intihara cəhd etməsinin motivlərindən biri də polisin Fransa əhalisinə zorakılıq etməyə təhrik edilməsidir"*

Fransa Daxili İşlər Nazirliyinin rəsmi məlumatlarına əsasən, bu il ölkədə polis və jandarmlar arasında intihar halları artıb. Belə ki, ilin əvvəlindən Fransada 35 polis və 33 jandarm intihara cəhd edib. Onlardan 28 nəfəri ölüb.

Fransa DİN-dən bildirilir ki son bir neçə gündə Fransada intihar edən insanlar arasında polis də var. Bu ölkənin daxili işlər naziri Krisrof Kastaner hadisədən sonra hüquq-mühafizə orqanlarında özünəqəsd hallarının qarşısının alınması məqsədilə təcili və təxirəsalınmaz tədbirlərə başlandığını bildirib.

Fransada son bir neçə ay ərzində 60-dan artıq polis və jandarmın intihara cəhd göstərməsi Fransa hökumətinin öz haqqlarını tələb edən və bunun üçün meydanlara çıxan fransızlara qarşı polisin əli ilə həyata keçirdiyi zorakılıq hallarına etiraz motivi ola bilərmi?

Ekspertlər qeyd edirlər ki, Fransa hökumətinin etirazçılarla sərt davranması və bu işə polisi, güc orqanlarını təhrik etməsi polislərin özləri tərəfindən narazılıqla qarşılanır. Onlar hesab edirlər ki, polislərin intihara cəhd etməsində bu motivləri axtarmaq daha düzgündür. Bu onu göstərir ki, Fransa polisi günahsız insanlara əl qaldırmaq istəmir və bu səbəbdən də çıxış yolunu intihara cəhddə görür. Fransa hökumətinin xalqla, cəmiyyətlə bağlı həyata keçirdiyi siyasətlə barışmayan polis işçilərinin, jandarmların intiharı seçdiyi təhlilçilərin diqqətini cəlb edir.

**Tanınmış hüquqşünas Əliməmməd Nuriyev bildirdi ki, bu ilin əvvəlindən başlayaraq Fransada 60-dan atrıq polis və jandarmın özünə qəsd etməsi olduqca ciddi məsələdir və bu, geniş araşdırma və təhlil tələb edir.** Ə.Nuriyev hesab edir ki, polislərin bu yolu seçməsi müxtəlif səbəblərdən ola bilər, bunun bir motivinin də onların Fransa hökumətinin xalqa qarşı törətdiyi cinayətlərlə barışmaq istəməməsi ilə bağlı olduğu şübhə doğurmur. "Bu elə bir məsələdir ki, onunla bağlı araşdırma, təhlil aparmadan münasibət bildirmək çətindir. Əvvəlcə bunun motovlərinin nədən ibarət olduğu aydınlaşmalıdır. Polislərin intihar etməsində həm ailədaxili məsələlər, həm sosial problemlər, həm ətraf mühitin təsirləri, həm iş yoldaşları ilə münaqişələr rol oynaya bilər. Əlbəttə, bu qədər polisin, jandarmın intihar etməsi yetərli qədər böyük rəqəmdir və Fransa hökumətinə düşünməyə əsas verir. Səbəb nə ola bilər ki, bir neçə ay ərzində bu qədər polis işçisi intihara cəhd edir, hətta bəzilərinin sonu ölümlə nəticələnir.

Hesab edirəm ki, ola bilsin, polislərin bu şəkildə intihara cəhd etməsinin motivlərindən biri də polisin Fransa əhalisinə zorakılıq etməyə təhrik edilməsidir. Çünki Fransada, bir qayda olaraq, əvvəllər insanlara qarşı belə genişmiqyaslı zorakılıq halları baş vermirdi. Bundan başqa, həmin ölkədə genişmiqyaslı, davamlı etiraz aksiyaları olmurdu. Bu da polisə, onun psixikasına sözsüz ki, təsir göstərib. Yəqin indi Fransa hökuməti bu halları araşdıracaq və gerçək səbəbləri üzə çıxaracaq" - deyə Ə.Nuriyev qeyd etdi.

*İradə SARIYEVA*

# Ermənistan İrana "iqtisadi müharibə" elan etmək ərəfəsində - "Sement qalmaqalının" siyasi motivləri...

**Ermənistan parlamentinin iqtisadiyyat komissiyasında ölkəyə sement idxalı ilə bağlı məsələ müzakirəyə çıxarılıb. Buna səbəb ölkənin sement istehsalçılarının İrandan idxal olunan analoji məhsulla rəqabətə davam gətirə bilməməsidir.**

İclasda çıxış edən ölkənin iqtisadiyyat naziri Tiqran Xaçatryan deyib ki, dövlət rüsumları ilə bağlı qanunvericilikdə dəyişiklik qəbul edilməlidir. Onun fikrincə, Ermənistana xarici dövlətlərdən sement idxalına yüksək məbləğdə rüsum tətbiq edilməlidir ki, yerli müəssisələr keyfiyyət və qiymət sarıdan rəqabətə tab gətirə bilsinlər. Nazir bildirib ki, əks halda, ölkədəki sement istehsalçıları müflis olacaq, zavodlar bağlanacaq və insanlar işsiz qalacaqlar.

Deputat Aram Sarkisyan isə naziri tənqid edib və bu təklifin düzgün olmadığını, ölkədə azad rəqabət mühitinin yaradılmasının vacib olduğunu bildirib: "Qoy 400 adam işsiz qalsın, ancaq əvəzində biz tikinti sektorunun inkişafını və büdcə gəlirlərini təmin edəcəyik".

Erməni deputat deyib ki, nazirin təklifi qəbul olunarsa, yerli istehsalçılar arxayınlaşar və sementin keyfiyyəti aşağı düşə bilər.

Nazir isə ona cavabında vurğulayıb ki, Ermənistanda sement istehsalı baha başa gəlir. Bu da müəssisələrin işlətdikləri təbii qazın qiymətilə bağlıdır. Ona görə də yerli müəssisələr İran kimi ölkələrin istehsalçıları ilə rəqabət apara bilmirlər.

Ermənistanın İranla çox yaxın münasibətlərə malik olduğunu nəzərə alsaq, sement idxalına məhdudiyyətin qoyulması ilə bağlı müzakirələrin başlaması bir sıra məqamlardan xəbər verir. Ermənistanın iqtisadi sahədə də bu ölkə ilə əlaqələrini nəzərə alanda, sementlə bağlı belə yanaşmanın ortaya çıxması, görünür, bəzi gözləntilərin özünü doğrultmaması ilə bağlıdır. Qeyd edək ki, bu ilin fevralında baş nazir Nikol Paşinyanın İrana rəsmi səfəri oldu. Səfər zamanı bir sıra görüşlər keçirildi. Ancaq məlum olan odur ki, Ermənistanın İranla bağlı bir sıra iqtisadi gözləntiləri özünü doğrultmadı. Məsələn, Ermənistan rəhbərliyinin İrandan yeni qaz xəttinin çəkiləcəyi ilə bağlı gözləntiləri vardı. Bu reallaşmadı. İranla Ermənistan sərhədində yaradılan azad iqtisadi zona, faktiki olaraq, yerində sayır. Paşinyan gözləyirdi ki, illərdir arzuladıqları "Şimal-Cənub" avtomobil magistralının tikintisi ilə bağlı konkret addımlar atılacaq. Ancaq iqtisadi baxımdan sərfəli olmadığına görə İran bunda maraqlı deyil.

O baxımdan, Ermənistanın İran sementinə məhdudiyyət qoymaq istəyi sözügedən gözləntilərin özünü doğrultmaması səbəbindən İrana siyasi təzyiq xarakterli addım ola bilərmi?

**Məsələyə münasibət bildirən AMİP-in baş katibi Arzuxan Əlizadə bunu istisna etmədi.** Onun fikrincə, bunun kökündə həm iqtisadi, həm də siyasi amillər ola bilər: "İranın bir zamanlar Ermənistan üçün hansı önəmə malik olduğunu təsəvvür etmək heç də çətin deyil. Çünki bununla bağlı kifayət qədər ortada fakt var. İran 90-cı illərdə Ermənistanın blokadadan çıxmasında mühüm rol oynayıb. Sonrakı dövrlərdə də iki ölkə arasında geniş əlaqələr qurulub. Baxmayaraq ki, Ermənistan təcavüzkar siyasət yeridərək Azərbaycanın 20 faiz ərazisini işğal edib. Ancaq bütün bunlara rəğmən, Ermənistan iqtisadi baxımdan İran üçün xüsusi önəm kəsb etmir. Ona görə ki, iqtisadi baxımdan geri qalmış bir ölkədir. Əksinə, Ermənistan istəyir ki, İrandan daha çox faydalansın. Ancaq bəzən bu mümkün olmur. Necə ki, Ermənistan istəyirdi İran vasitəsilə bəzi meqalayihələri reallaşdırsın, amma alınmadı. Bu səbəbdən Ermənistanın cənub qonşusundan iqtisadi gözləntiləri, bir növ, azalır. Ola bilsin ki, İran sementinə tətbiq olunan rüsumun kökündə bu dayanır. Ancaq sementlə bağlı məsələdə siyasi motivlərin izləri də böyükdür. Çünki Paşinyan İrana yönəlik sanksiyaların fərqindədir. O görür ki, İranla bağlı həlqə daralır. Hesab edirəm ki, Paşinyan bununla Qərbə yönəlik reveranslar edir. Çünki Ermənistanın İranla olan yaxın münasibətləri ABŞ-ın xoşuna gəlmir. O üzdən, Paşinyan erməni hiyləgərliyinə xas olaraq bu cür addımlar atır. Onu da qeyd edim ki, bu günlərdə İran parlamentinin sədri Laricani erməni həmkarı ilə görüşündə ona iradını söylədi. Bildirdi ki, Ermənistan Araz çayını çirkləndirir".

***Arzuxan Əlizadə:*** *"Ermənistanın cənub qonşusundan iqtisadi gözləntiləri azalır"*



*"Sementlə bağlı məsələdə siyasi motivlərin izləri də böyükdür"*

***Vidadi ORDAHALLI***

# Parisin ardınca Nyu York kilsəsi, sonra isə - ... saxta "ümumdünya müsəlman qəsdinə" hazırlıq...

**Fransa paytaxtında yerləşən Notr Damm kilsəsinin yanması dünyada böyük rezonans doğurdu. Çünki bu qədim kilsə həm də dünyanın nadir tarixi memarlıq incilərindən sayılır. Kilsənin yanmasına səbəb kimi müxtəlif versiyalar irəli sürülür. Fransanın aparıcı media qurumları iddia edirlər ki, yanğına səbəb qısa qapanma olub.**



*"Müsəlman dünyası bunları nəzərə alıb ehtiyatlı davranmalı, provokasiyalara uymamalıdır"*

***Tural İrfan:*** *"Yüz faiz əminəm ki, bununla müsəlmanların üzərinə müasir formada bir səlib yürüşü təşkil etmək üçün əsaslar axtarırlar"*

Təhqiqatçılar ehtimal edirlər ki, yanğın təsadüfən olub, bununla belə, həm kilsə işçiləri, həm də binanın bərpası ilə məşğul olan mütəxəssislər dindirilir. Bununla yanaşı, yanğına səbəb olan fərziyyələr arasında təxribat versiyası da nəzərdən keçirilir. Maraqlıdır ki, xristian aləmində Notr Damm yarasının qaysağı qopmamış, katoliklərə məxsus ABŞ-dakı Müqəddəs Patrik kilsəsinin yandırılmasına cəhd edilib. Həmin kilsəni 15 litr benzinlə yandırmaq istəyən 37 yaşlı Nyu-Cersi sakini polis tərəfindən saxlanıb. Dünya mediasının verdiyi məlumata görə, həmin şəxs əlindəki yanacaqla kilsənin hasarından aşaraq içəri daxil olmaq istəyib. Lakin o öz istəyinə nail ola bilməyib. Saxlanan şəxs polisə ifadəsində benzini avtomobilinin yanacağı bitdiyi üçün aldığını desə də, sonradan əsl niyyətini etiraf etməli olub.

Qeyd edək ki, Müqəddəs Patrik kilsəsi Notr Damm Paris kilsəsindən sonra ən böyük katolik kilsəsi hesab olunur. Hər halda, hadisələrin belə ardıcıllıqla cərəyan etməsi təsadüfə oxşamır. Sanki hansısa mərkəzlər xristianlığın həssas yeri sayılan məkanlara qarşı məqsədli şəkildə təxribat planları həyata keçirirlər ki, sonradan bunu müsəlman dünyasının üzərinə atsınlar. Tarixdə belə faktlar heç də az olmayıb. Məsələn, faşistlərin lideri olan Hitler Reyxstaq binasını yandırmaqla, kommunistlərə divan tutmaq üçün əlinə əsas keçirmiş oldu. Bu baxımdan da maraqlıdır, dünyadakı məşhur xristian məbədlərinə qarşı edilən təxribatları müsəlmanların üstünə atmaq kimi cəhdlərin olması nə dərəcədə mümkün və inandırıcı görünə bilər?

**İlahiyyatçı Tural İrfan "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu hadisələrdə təxribat izinin olması daha inandırıcı görünür:** "Xristian dünyası açıq şəkildə etiraf edir ki, İslam dünyasının güclənməsindən narahatlıq keçirir. Xristianlığın hakim olduğu inkişaf etmiş ölkələrdə müsəlmanların sayının sürətlə artması onları ciddi narahat edir. Bu səbəbdən də biz mütəmadi şəkildə belə təxribatlarla tanış oluruq. Mən bu gün tanış oldum, deyirlər ki, Fransadakı kilsənin yanmasına səbəb qısa qapanma olub. Ola bilsin ki, hansısa dairələr elə təxribatı bu üsulla ediblər. Bunun ardınca ABŞ-da kilsənin yandırılmasına cəhdin olması da təsadüfə oxşamır. Yüz faiz əminəm ki, bununla müsəlmanların üzərinə müasir formada bir səlib yürüşü təşkil etmək üçün əsaslar axtarırlar. Təəssüflər olsun ki, bizim müsəlman dünyasında hələ də cəhalət hökm sürür. Düzdür, biz hansısa kilsənin yanmasına sevinmirik. Çünki dinimiz onların hamısını Allah evi sayır. Ancaq bzim məscidlərə olunan hörmətsizliyə xristian aləmi belə həssas münasibət bəsləmir. Hər halda, bu tolerantlıq nümunəsini bizdən öyrənsələr yaxşı olar. Bu yaxınlarda Suriyanın Hələb şəhərində olan 1000 illik məscid yandırıldı, heç ona belə reaksiya verilmədi. Biz dindəki ikili standartların da əleyhinəyik. Hər halda, müsəlman dünyası bunları nəzərə alıb ehtiyatlı davranmalı, provokasiyalara uymamalıdır".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistanın Gürcüstan üzərindən "nüvə qaçaqmalçılığı" planları rəsmən açıldı...

*Gürcüstan ərazisi terror təşkilatlarına "Metsamor" nüvəsi satmaq üçün çox münbit məkana çevrilir...*

**Regionda ciddi təhdid mənbəyi kimi qalmaqda davam edən "Metsamor" atom elektrik stansiyası (AES) bu dəfə İrəvan və Tiflis arasında yeni çəkişmə predmetinə çevrilməkdədir. Məsələ burasındadır ki, İrəvan "Metsamor"da istifadə edilmiş radioaktiv tullantıların qalıqlarını indi Gürcüstan üzərindən daşımağa çalışır. Amma Tiflisin buna razılıq verəcəyi inandırıcı sayılmır.**

İndilikdə isə yayılan məlumatlardan bəlli olur ki, Ermənistan "Metsamor" AES-dən istifadə zamanı çirklənmiş nüvə yanacağını Rusiyada təmizləmək niyyətindədir. Hazırda işlənmiş radioaktiv maddələrin Gürcüstan ərazisindən keçməklə Rusiyaya daşınması məsələsi müzakirə olunur. Ermənistanın Energetika Nazirliyinin kredit və qrant proqramları idarəsinin rəisi Vardan Martirosyanın sözlərinə görə, radioaktiv maddələrin təmizlənməsini Rusiyanın "Mayak" İstehsalat Birliyi həyata keçirəcək.

V.Martirosyan bildirib ki, bu cür təhlükəli tullantılar təyyarə ilə daşınmır. Ona görə də Gürcüstan ərazisindən keçməklə təhlükəsiz olaraq Rusiyaya daşınmalıdır. Gürcüstan dövləti yüklərin öz ərazisindən keçməklə təhlükəsiz daşınması barədə əsaslandırılmış məlumat və təminat verməlidir. Gürcüstan hökuməti hələlik Martirosyanın açıqlamasına cavab verməyib. Amma politoloqlar və müstəqil ekspertlər bunun mümkünsüz olduğunu iddia edir. Politoloq Quram Marxuliyanın sözlərinə görə, Gürcüstan belə təhlükəli yüklərin daşınmasına yol verə bilməz. Bu, Gürcüstan qanunları ilə də qadağandır: "Ermənilər, sadəcə, bu cür sərsəm bəyanatlarla Gürcüstanı "yükləmək" və bu yolla radioaktiv tullantıların öz ərazisindən daşınmasına icazə verməyə məcbur etmək istəyir". Marxuliya vurğulayıb ki, Tiflis bu qanunsuz halların icrasına razılıq verməyəcək. Bütün bunlara səbəb "Metsamor"dakı tullantıların kifayət qədər təhlükəli xarakterə malik olmasıdır.

Xatırladaq ki, indiyə qədər "Metsamor" AES-dən çıxarılan radioaktiv tullantıların işğal altında olan Azərbaycan ərazilərində basdırılması, həmin ərazilər vasitəsilə daşınması barədə çoxsaylı məlumatlar yayılıb. Məlumatlara görə, həmin tullantılar əsas etibarı ilə Ağdərə, Kəlbəcər və Laçın rayonlarında basdırılır. Ekspertlər qeyd edib ki, həmin ərazilərdə radiasiyanın şiddətli dərəcədə artması da qeyd edilənlərin təsdiqidir. Bu isə təkcə Azərbaycan yox, bütün region üçün çox böyük təhlükədir. bundan başqa "Metsamor"un nüvə tullantılarının "qara bazar"da satışı bütün dünya üçün təhlükə mənbəyidir. Burada onu da xatırladaq ki, Ermənistanın İran və Türkiyə ilə sərhədlərini Rusiya ordusu qoruyursa, Gürcüstan sərhədlərini ermənilər özləri qoruyur. Buna görə də onların yolları Gürcüstan istiqamətindən açıqdır. Buradan isə ermənilər stansiyadan çıxarılan




təhlükəli tullanıtları dəfələrlə dünya bazarlarına çıxarmağa çalışıblar. Təkcə rəsmi rəqəmlərə görə, 1999-cu ildən indiyə qədər 17 erməni vətəndaşı nüvə tullantılarını satarkən saxlanıb. Satışın həyata keçirilməsi, üstü açılmayan halların isə bundan dəfələrlə çox olması ehtimal edilir. Başqa sözlə, ermənilər AES-dən əldə etdikləri tullantıları dünya terror təşkilatlarına göndərirlər.

Digər tərəfdən ehtimal olunur ki, Ermənistan "çirkli bombalar" istehsalı ilə məşğul olur. Onların partlaması isə çox böyük fəsadlar yarada bilər. Özü də heç kim zəmanət verə bilməz ki, həmin bombaları ermənilər terror təşkilatlarına ötürmür. Bununla yanaşı, artıq dəfələrlə qeyd olunduğu kimi, stansiyanın özünün mövcudluğu ciddi təhdid mənbəyidir. Burada hansısa fəlakət baş verərsə, 100 kilometr radiusda ərazinin ölü zonaya çevrilməsi təhlükəsi var. Bu baxımdan Ermənistanın özü də bu fəlakətdən sığortalanmayıb. Xatırladaq ki, "Metsamor" Ermənistanın paytaxtından cəmi 75 kilometr uzaqlıqda yerləşir. Fəlakət baş verəcəyi təqdirdə radiasiya həm də Rusiya ərazisinə, o cümlədən Qara dəniz hövzəsi ölkələrinə də təsirsiz ötüşməyəcək. Qeyd edək ki, "Metsamor" AES 1970-ci illərdə sovet texnologiyası ilə inşa olunub. Həmin stansiya kifayət qədər köhnəlib. Onun 30 il istismar müddəti olub. 2011-ci ildə stansiyanın istismar müddəti başa çatıb. Lakin sonradan bu müddət daha 15 il uzadılıb. Xatırladaq ki, erməni mütəxəssislər özləri də "Metsamor"un ciddi təhlükə mənbəyi olduğunu etiraf edirlər. Onların fikrincə, "Metsamor"da qəza baş versə, qonşu ölkələr kimi, Ermənistan da böyük ekoloji fəlakət qarşısında qalacaq. Odur ki, Azərbaycanın dəfələrlə bəyan etdiyi kimi, dünya ölkələri beynəlxalq səviyyədə "Metsamor"un fəaliyyətinin dayandırılmasında aktiv rol oynamalıdır.

***Nahid SALAYEV***

# Müllerin "Rusiya işi" hesabatı açıqlandı, Tramp istintaqa müdaxilə etmək istəyib, ancaq... "Bu mənim sonum olar"

**ABŞ-ın baş prokuroru Uilyam Barr aprelin 18-də Ədliyyə Nazirliyinə xüsusi təhqiqatçı Robert Müllerin hesabatının tam versiyasını açıqlayıb. Robert Müller 2 il ərzində ABŞ prezidenti Donald Trampın seçki komandası, yaxınlarının Rusiya ilə əlaqələrini və Rusiyanın 2016-cı il ABŞ prezident seçkilərinə müdaxiləsini araşdırıb.**



Hesabatın xülasəsi martın 24-ü dərc olunub və orada müstəntiqlərin Trampın kampaniyasının Rusiya və onun hökuməti ilə əlaqəsinə aid heç bir dəlil tapmadığı bildirilib.

400 səhifəlik hesabat redaktə edilmiş formatda çap olunub. Hesabatda hazırkı araşdırmalara, habelə bir sıra araşdırmalarda iştirak edən şəxslərin şəxsi məlumatlarına aid hissələr çıxarılıb. Barr başqa heç bir ixtisar edilmədiyini deyib.

ABŞ baş prokuroru daha öncə xülasədə qeyd olunmuş nəticələri təsdiqləyib: Trampın seçki qərargahından və ya digər ABŞ vətəndaşı aşağıda sadalanlardan heç biri ilə əlaqədə olmayıb:

İnternet Tədqiqat Agentliyi (onu Kremlə yaxın iş adamı Yevgeni Priqojinlə əlaqələndirirlər): Amerikanın sosial şəbəkələrində Demokrat Partiyaya qarşı kampaniya aparıb,

ABŞ Demokrat Partiyasının icra orqanı olan Milli Demokratik Komitəsinin serverlərinə hücuma nəzarət edən Rusiya xüsusi xidmət orqanları ilə.

Barr, həmçinin, Demokrat Partiyasının serverindən gələn məktubları Rusiya kəşfiyyat xidməti GRU-nun "Wikileaks" vasitəsilə yaydığını düşündüyünü söyləyib. Lakin onun sözlərinə görə, Trampın seçki qərargahı və yaxın ətrafından heç kəs nə GRU, nə də Wikileaks nümayəndələri ilə əlaqədə olub. Barr həmçinin bildirib ki, kompüterin hak olunmasından fərqli olaraq, məlumatların dərc olunması özü-özlüyündə cinayət sayılmır. Lakin müstəntiqlər Trampın ətrafından heç kimin hər iki halla əlaqəsini müəyyən edə bilməyib.

Hesabatda Müellerin xüsusi bir prokuror təyin olunmasını öyrənəndə ABŞ prezidenti Trampın çox narahat olduğu qeyd edilir. Hesabatında Trampın "Çox pis oldu, bu mənim prezidentliyimin sonu olar... Bu istintaq illərlə davam edə bilər və mən heç nə edə bilmərəm. Bu mənim başıma gələn ən pis şeydir" dediyi bildirilir.

Tramp ABŞ-ın keçmiş ədliyyə naziri Jeff Sessionsa çox sərt şəkildə "Buna necə icazə verə bilərsən Jeff? Sənin vəzifən məni qorumaq deyilmi?" deyib.

Digər tərəfdən, Müellerin hesabatında Trampın "Rusiya işi" istintaqına təsir göstərmək üçün bəzi addımlar atmaq istədiyi, ancaq ətrafdakı adamların ona qarşı çıxaraq bunu rədd etdiyi qeyd edilir.

**Amerika mətbuatı Müellerin "Tramp ədalətin qarşısını almaq və istintaqı yönəltmək istədi" sözlərini manşetlərə daşıyaraq, Trampın istintaqa müdaxilə etmək istədiyini yazıb.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Böyük güclərin "Qarabağ rəqabəti" başlanır(?)

**ABŞ-ın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə əlaqədar Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin növbəti görüşünü Vaşinqtonda təşkil etmək niyyəti, Bakıdan fərqli olaraq, İrəvanda böyük ajiotaja səbəb olub. Ermənistanda hesab edirlər ki, ABŞ-ın prosesdə aktiv rol almaq niyyəti Azərbaycanın maraqlarına tam cavab verdiyi halda İrəvan üçün qəbuledilən deyil.**

Çünki ABŞ prosesin Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə yekunlaşmasını istəyir.

Xatırladaq ki, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Varşavada keçirdiyi brifinqdə ABŞ tərəfinin Azərbaycan və Ermənistan XİN rəhbərlərinə Qarabağ münaqişəsinin həlli ilə bağlı müzakirələri davam etdirmək üçün növbəti görüşü Vaşinqtonda keçirməyi təklif etdiyini diqqətə çatdırıb:"Bizə danışıqlarda irəliləyiş lazımdır. Deyə bilərəm ki, bu baxımdan elə də nikbin deyiləm, amma real danışsaq, səyləri ikiqat artırmaq lazımdır. Rusiya bunu edir, son görüşdə Rusiyanın xarici işlər naziri Sergey Lavrov da iştirak etdi. Daha sonra ABŞ-dan təklif aldıq. ABŞ dövlət katibi Mayk Pompeo da danışıqlarda irəliləyişə nail olunmasına töhfə vermək niyyətindədir". Azərbaycan XİN rəhbərinin bəyanatına İrəvanın cavabı özünü çox gözlətmədi. Parisdə səfərdə olan Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Anna Nağdalyan Azərbaycan və Ermənistanın xarici işlər nazirlərinin Vaşinqtonda görüşünün birtərəfli elanına görə Azərbaycan XİN başçısını tənqid edib, amma dəvət faktını təkzib etməyib: "Həqiqətən də, əvvəlki belə görüşlərin coğrafiyası nəzərə alınaraq, növbəti görüşün ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrindən birində keçirilməsinin mümkünlüyü nəzərdən keçirilir. Ancaq bu məsələ hələ müzakirə mərhələsində olduğundan, birtərəfli ifadələrin tətbiqindən çəkinmək lazımdır. Bundan başqa, görüşün ATƏT-in Minsk Qrupu ölkələrindən birində keçirilmə yeri haqda qiyabi elan prosesin iştirakçılarına, ilk növbədə isə bu vasitəçiyə hörmətsiz münasibətdir. Hələ razılaşdırılmamış görüş barədə elan vermək arzusu qarşılıqlı güvənə əsaslanan iş üçün normal bir mühitin meydana gəlməsinə kömək etməyəcək".

Parisdə olan Ermənistan Xarici İşlər Nazirliyinin başçısı Zoqrab Mnatsakanyan isə "Fiqaro" nəşrinə müsahibəsində bildirib ki, nizama salınma yalnız siyasi ola bilər və danışıqların tək formatı ATƏT-in Minsk Qrupudur. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva da məsələyə çevik reaksiya verib. O qeyd edib ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair Azərbaycan xarici işlər nazirinin erməni tərəfi və ya ATƏT-in Minsk Qrupunun həmsədləri ilə keçiriləcək görüşlər və atılacaq addımlara dair şərhləri "3+2" formatında qəbul edilmiş birgə bəyanatlara tam uyğun olaraq edilir: "Sözügedən bəyanatlar isə açıq şəkildə iki ölkə əhalisinin sülhə hazırlanması zərurətini dəstəkləyir. Ermənistan rəhbərliyi anlamalıdır ki, mövcud status-kvo qəbuledilməzdir, dayanıqlı deyil və bu proses həmişəlik davam edə bilməz. Biz Ermənistan Xarici İşlər Nazirliyini "3+2" formatında qəbul edilmiş bəyanatlara qoşulmağa və daha praqmatik olmağa, eləcə də ATƏT-in Minsk Qrupunun həmsədrlərinin fəaliyyətinə etimad göstərməyə və dəstək nümayiş etdirməyə dəvət edirik. Əgər Ermənistan tərəfi etimad quruculuğundan və danışıqlarda səmimiyyətin yaradılmasından bəhs edirsə, o zaman, Azərbaycan tərəfində olduğu kimi, onlar da qarşılıqlı etimadın yaradılmasına çalışmalı və buna uyğun şərhlər verməlidirlər. Eyni zamanda, onlar regionda sülh, sabitlik və rifahın yaradılması istiqamətindəki səylərə qoşulmalıdırlar". Bütün bu söz duelində maraq doğuran məsələ, heç şübhəsiz, İrəvanın ABŞ-da keçiriləcək görüş barədə məlumatın indidən açıqlanmasından keçirdiyi narahatlıqdır. Erməni mediasının yazdıqlaprından belə bəlli olur ki, əslində, ABŞ münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tezliklə həllində maraqlıdır. Elə ABŞ Qulf Analitik Mərkəzinin mütəxəssisi Teodor Karasik da eyni mövqeni bölüşür. O vurğulayır ki, Dağlıq Qarabağ münaqişəsinin yaxın gələcəkdə həll olunacağına ümid var.

Politoloqun sözlərinə görə, hazırda münaqişənin həllinə nail olmaq üçün bir çox şans var: "Uzun müddətdir davam edən bu tarixi və emosional mübarizədə sülhü qəbul etmək istəməyən, üzülən insanlar da olacaq. Amma artıq zamanıdır". Rəsmi Vaşinqtonun marağını şərh edən politoloq Rusiya və ABŞ-ın bu məsələdə olduqca aktiv olacağını da vurğulayıb: "Rusiya və ABŞ artıq bu münaqişənin hansı şəkildə, hansı şərtlərlə olur-olsun, həllində maraqlıdır". Erməni mediası yazır ki, əslində, ABŞ ötən ildən məsələnin həllində aktiv rol oynamağa çalışır. Ermənistanın "Yerkramas" nəşri qeyd edir ki, ötən il ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Boltonun regiona səfərindən sonra Vaşinqton Qarabağ məsələsi ilə daha yaxından maraqlanmağa başlayıb. Elə həmin vaxtdan da problemin çözümündə "Bolton planı" gündəmə gəlib.

Bildirilir ki, "Bolton planı"nda Dağlıq Qarabağın müstəqil statusu nəzərdə tutulmur, çünki plan onun Azərbaycan tərkibində olmasına hesablanıb, sülhməramlılar yoxdur və yalnız sülh vədi var: "Bolton planı" Nikol Paşinyanın rəsmən baş nazir olmasından sonra reallaşmanın praktik mərhələsinə daxil oldu. Təbii ki, Paşinyan bu rolu öz üzərinə götürmək istəmir, amma göründüyü kimi, ya "yox" deyə bilmir, ya da oyunun mənasını anlamır. Faktdır ki, indiki halda, Paşinyan Dağlıq Qarabağ barədə intensiv danışır və bu mübahisəsizdir. Artıq xalqların sülhə hazırlanmasından danışılırsa, tərəflər detalların uyğunlaşdırılması mərhələsinə keçib". Maraqlıdır ki, Rusiya Siyasi Araşdırmalar İnstitutunun baş direktoru Sergey Markov da problemin "Bolton planı" üzrə çözümünü mümkün sayır. O hətta vurğulayır ki, bu planı işə salmaqla rəsmi Vaşinqton Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində təşəbbüsü Moskvanın əlindən almaq istəyir: "Vaxtilə Rusiya Suriyaya qoşun yeritdi və İŞİD-lə müharibəyə başladı. ABŞ da dərhal oraya qoşun göndərdi və koalisiyanın başında İŞİD-ə qarşı real mübarizə aparmağa başladı. Bir növ İŞİD-ə qarşı döyüşənlərin yarışması formalaşdı. İndi də rəsmi Vaşinqton Dağlıq Qarabağ məsələsinin nizamlanmasında Rusiyanın vasitəçiliyinin real nəticə verəcəyini görən kimi Moskvanı qısqanıb. Bəlkə indi Qarabağ məsələsinin həlli üzrə sülhməramlıların rəqabəti başlayar". Nizamlama perspektivləri barədə danışan politoloq münaqişənin həllinə ümid etdiyini vurğulayıb: "Düşünürəm ki, bu gün Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlarda artıq bu il ciddi irəliləyişə nail olunmasına dair yaxşı şanslar var".

Ermənistanın "Lragir" qəzeti də yazır ki, ABŞ özünün geosiyasi maraqları üzündən də münaqişənin həllinin tezləşməsində maraqlıdır: "ABŞ dövlət katibi Mayk Pompeonun dəvəti, əlbəttə, balansı saxlamaq və Qarabağ münaqişəsinin nizama salınmasında Moskvaya müstəsna hüquq verməmək niyyəti ilə ola bilər. Digər tərəfdən, ABŞ müxtəlif münaqişələrin nizama salınmasının əsas missiyasını öz üzərinə götürməyə çalışır və bu planda konseptual bəyanatlar hazırlanır. ABŞ dünyada münaqişələrin həlli üçün hansısa universal sxemləri tapmağa çalışır və öz variantlarını təklif edir". Amma Ermənistandan fərqli olaraq, münaqişədə ABŞ-ın fəallığı Azərbaycanda müsbət qarşılanır. Məsələn, politoloq Qabil Hüseynli qeyd edir ki, Dağlıq Qarabağla bağlı danışıqların Vaşinqtonda davam etdirilməsi təklifi xüsusi əhəmiyyət daşıyır: "Burada liderlik uğrunda Rusiya ilə ABŞ arasında yarış elementləri var, amma ABŞ üçün liderlikdən daha çox problemin həlli vacibdir. Çünki ABŞ Rusiyaətrafı bölgələrdə öz geostrateji maraqlarını təmin edən vəziyyət yaranmasını istəyir. Belə vəziyyətin yaranmasına mane olan da Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağla bağlı aparılan müharibə və ya münaqişədir. ABŞ yaxşı başa düşür ki, bu münaqişə səngimədən Azərbaycanın regionda reallaşdırdığı böyük iqtisadi layihəni işə salmaq mümkün olmayacaq. Üstəlik türkmən qazını, Qazaxıstan neftini Xəzərin dibindən keçirməklə Bakı-Ceyhan neft kəməri və eləcə də Azərbaycanın üzv olduğu "Cənubi Qaz Dəhlizi"ni birləşdirmək alınmayacaq. Hətta Özbəkistan da bu fikirdədir. ABŞ Avropanın, eləcə də dünyanın neft-qaz təchizatını divertifikasiya etdirməyə, Rusiyanın Avropadakı qaz diqtəsinin, inhisarçılığının qarşısını almağa çalışır. Bu məsələdə də ən əhəmiyyətli amil Azərbaycanla Ermənistan arasındakı münaqişəyə son qoyulması, sülhün əldə edilməsidir.

Əlbəttə, Moskva görüşündən sonra danışıqların Vaşinqtonda davam etdirilməsi təklifi xüsusi əhəmiyyətlidir. Doğrudur, Moskva danışıqlar prosesinə mane olmağa çalışır. Ermənilər də, belə desək, Rusiyanın dediyi ilə oturub-durur. Amma hər halda, ABŞ-ın təklifi tekton tərəflərə yumşaq mühit yarada bilər. Bir sözlə, ABŞ danışıqlar prosesinə Moskvadan daha güclü stimul verə bilər. Bu səbəbdən Vaşinqton görüşünü, sözsüz ki, alqışlamaq lazımdır".

Politoloqun fikrincə, ermənilər başqa dövlətin təsiri altında danışıqlar prosesinə əngəllər yaratmağa davam etsələr də, dünya ictimai rəyinin, xüsusilə ABŞ-ın, Avropa Birliyinin qarşısında çəkilmək məcburiyyətində qalacaqlar: "Bu, ola bilsin, regionda sülh sazişinin imzalanmasına gətirib çıxarsın. Azərbaycan xalqı bunu ürəkdən arzu edir. İşğalçı Ermənistanın siyasi liderlərinin buna uyğun qərar verməsinə böyük ehtiyacı var. Hələ ki, ABŞ Kremlin irəli sürdüyü şərtlərdən qat-qat yaxşı həll variantı təklif edir. ABŞ indiki şəraitdə heç bir qeyd-şərt olmadan erməni əsgərin Dağlıq Qarabağ hüdudlarından kənardakı 7 rayondan geri çəkilməsini istəyir və bildirir ki, Ermənistan özünü işğalçı hesab etmirsə, burdakı qoşunlarını geri çəkməlidir. Dağlıq Qarabağın statusu məsələsinə münasibətdə isə bildirir ki, qaçqınların geri qayıtmasından, bölgədə normal iqtisadi əlaqələrin bərpasından sonra bu danışıqları davam etdirmək olar. ABŞ NATO-nun üzvüdür. NATO 2013-cü ildən bəri bütün sammitlərində postsovet məkanındakı münaqişələrin ərazi bütövlüyü çərçivəsində həll edilməsinə dair bəyanat verib. Bu bəyanat artıq bir neçə dəfə səsləndirilib. Bu, dolayısı yolla ABŞ-ın, eləcə də digər NATO üzvlərinin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməsi anlamına gəlir". Elə bu da Ermənistanda ciddi narahatlıq yaradır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Azərbaycanda bu il də çörəyin qiyməti artmayacaq - Prezidentin kütləvi rifaha yönəlmiş daha bir qərarı...

***Əli Əlirzayev:** "Çörəyin istehsalına və satışına tətbiq edilən vergi güzəşti insanların həyatını qorumağa xidmət edən bir məsələdir"*

**Azərbaycan dövlətinin həyata keçirdiyi sosialyönümlü siyasətin əsasını xalqımızın rifah halının yüksəldilməsi, onun bütün qayğı və çətinliklərdən xilas edilməsi təşkil edir. Prezident İlham Əliyev sosial siyasət sahəsində hər bir addımı xalqı düşünərək atır desək yanılmarıq.**




*"Dövlətin sosial istiqamətdə həyata keçirdiyi siyasətin əsas hədəfi Azərbaycan xalqının ehtiyacsız, qayğısız, problemsiz həyat sürməsidir"*

Bunu son bir neçə ayda ölkə başçısının ard-arda imzaladığı sosial sərəncamlar, fərmanlar da təsdiqləyir. Qəbul edilən bütün qərarların hədəfi Azərbaycan xalqının sosial rifah halının yüksəldilməsi, onun həyat şəraitinin yaxşılaşdırılmasıdır.

Bu gün insanların ən çox ehtiyacı olan qida məhsulları arasında bəlkə də birinci yeri çörək tutur. Milli-mənəvi dəyərlər baxımından yanaşdıqda çörək həm müqəddəsdir, həm də insanların qida rasionunun özəyini təşkil edir. Prezidentin çörəklə bağlı qəbul etdiyi qərar əhalinin bütün təbəqələri, o cümlədən də aztəminatlı ailələr tərəfindən müsbət qarşılanır.

Məlum olduğu kimi, Prezident İlham Əliyev Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanunu imzalayıb. Bu, çörəyə tətbiq olunan vergi güzəştinin müddətinin uzadılması ilə bağlıdır. Dəyişikliyə əsasən, Azərbaycanda buğdanın idxalı və satışı, buğda ununun və çörəyin istehsalı və satışı daha 1 il vergidən azad olunacaq. Yəni vergidən azadetmə 2020-ci ili də əhatə edəcək. Bu güzəşt 2017-ci ildən tətbiq edilir.

Güzəştlər kəpəyin istehsalı və satışına da aiddir. Belə ki, Məcəllənin 164-cü (Vergi ödəməkdən azad edilmə) maddəsinə də "kəpəyin istehsalı və satışı - 2019-cu il martın 1-dən 2 il müddətinə" sözləri əlavə olunub.

Ölkə başçısının bu fərmanını şərh edən ekspertlər bildirirlər ki, Prezidet bu addımı atmaqla apardığı uğurlu sosial siyasətin əhalinin rifah halının yaxşılaşdırılmasına yönəldiyini bir daha ortaya qoydu. Ekspertlər qeyd edirlər ki, un məhsullarının satışının daha bir il vergidən azad olunması Prezidentin hər addımda əhalini düşünməsi deməkdir. Bu istiqamətdə vergi güzəştinin tətbiq edilməsi ona imkan verəcək ki, çörəyin qiymətində hər hansı bir artım olmasın, qiymətlər sabit qalsın. Ümumiyyətlə, Prezidentin əsas məqsədi qida məhsullarının qiymətinin əhalinin imkanlarına uyğun olmasına nail olmaqdır.

**İqtisadçı-ekspert Əli Əlirzayev "Bakı-Xəbər"ə bildirdi ki, Prezident belə bir fərman imzalamaqla bir daha Azərbaycan xalqının rifah halının daha da yüksəlməsini düşünür.** O hesab edir ki, ümumiyyətlə, dövlətin humanitar və sosialyönümlü bütün layihələri, qəbul etdiyi qərarları cəmiyyətimizin qayğısızlığına, firavanlığına xidmət edir. "İnsanın ən çox tələbatı olan çörəkdir, digər qida məhsullarıdır. Çörəyin qiymətinin stabil qalması çox müsbətdir. Bilirsiniz ki, çörək, un məmulatları aztəminatlı ailələrin istehlakının əsas faizini təşkil edir. Ona görə də un məhsullarına tətbiq edilən güzəşt ucuzluq yaradır, bu da aztəminatlı ailələrə müsbət təsir göstərir. Gəlirləri aşağı olan ailələr üçün bu olduqca faydalıdır. Prezidentin bu fərmanı çörək istehsalı ilə məşğul olan sahibkarları da stimullaşdırır. Bu məsələlər dövlət tərəfindən tənzimlənir. Görürsünüz ki, sahibkarlara güzəştli kreditlər, subsidiyalar verilir, idxalda olan vergilər azaldılır. Vergi, ümumiyyətlə, qiymətin üstünə gələn kəmiyyətdir. Vergi nə qədər az olsa, qiymət də aşağı düşər. Çörəyin və digər ərzaq məhsullarının qiymətinə nəzarət sisteminin tətbiq olunması əhalinin ərzaq təhlükəsizliyinin qorunmasıdır. Çörəyin istehsalına və satışına tətbiq edilən vergi güzəşti insanların həyatını qorumağa xidmət edən bir məsələdir. Prezidentin bu məsələ ilə bağlı imzaladığı sosialyönümlü fərman ailələrin qorunmasında, onların sosial rifah halının yüksəlməsində mühüm rol oynayır. Dövlətin sosial istiqamətdə həyata keçirdiyi siyasətin əsas hədəfi Azərbaycan xalqının ehtiyacsız, qayğısız, problemsiz həyat sürməsidir. Çünki atılan bütün addımların mərkəzində Azərbaycan dövlətinin vətəndaşları durur ki, onların da hər birinin sosial qayğısının həlli dövlətin diqqətindədir. Necə ki, bu problemlərin həlli istiqamətində mühüm sosialyönümlü addımlar atılır" - deyə Ə.Əlirzayev qeyd etdi.

***İradə SARIYEVA***

# Azərbaycanın indiki xarici ticarəti manatla bağlı vəziyyəti dəyişdi

**Ölkə iqtisadiyyatının inkişafının daha dinamik hala gətirilməsi məqsədilə bu gün dövlət tərəfindən özəl sektora kifayət qədər böyük dəstək verilməsi danılmaz həqiqətdir. Elə bundan irəli gəlir ki, ölkədə həm sahibkarların artması, həm də özəl sektor tərəfindən istehsal edilən məhsulların çeşidinin, həcminin çoxalması müşahidə olunur. Proseslərin bu səpkidə inkişafı artıq Azərbaycanın bir çox məhsullar üzrə xaricdən olan asılılığını da əhəmiyyətli dərəcədə azaldıb. Əvəzində ixracda intensiv artım qeydə alınmaqdadır.**



Yeri gəlmişkən qeyd edək ki, cari ilin yanvar-mart aylarında Azərbaycan 7 milyard 620,126 milyon dollar dəyərində xarici ticarət əməliyyatı aparıb. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 37,4% çoxdur. 3 aylıq ticarət dövriyyəsinin 4 milyard 484,549 milyon dolları ixracın, 3 milyard 135,576 milyon dolları idxalın payına düşüb. Son nəticədə xarici ticarətdə 1 milyard 348,972 milyon dollarlıq müsbət saldo yaranıb ki, bu da illik müqayisədə 15,9% çoxdur. Son 1 ildə ixrac 33,7% artıb. Ekspertlər bu rəqəmləri yüksək dəyərləndirir və xarici ticarətdə müsbət saldonun artımının mühüm nəticələrə gətirib çıxaracağını proqnozlaşdırırlar.

Digər tərəfdən, xarici ticarət həcminin artması bir çox parametrlər baxımından da ölkə iqtisadiyyatına müsbət təsir göstərir. Məsələn, faktdır ki, iqtisadi inkişaf xarici ticarətin genişlənməsi nəticəsində ortaya çıxan rəqabətin artması, ölkəyə yeni texnologiyaların gəlməsi və bütövlükdə resursların daha səmərəli istifadə hesabına sürətlənir. Digər tərəfdən, makroiqtisadi stabilliyin mühüm elementi olan valyuta gəlirlərinin uzunmüddətli dövrdə davamlılığının təmin olunması baxımından ixrac gəlirlərinin artırılması vacib sayılır. Eyni zamanda, neftdən asılılığının azaldılması istiqamətində Azərbaycan hökuməti tərəfindən fəal xarici ticarət strategiyası həyata keçirilir. Elə qəbul edilmiş strateji yol xəritələri göstərir ki, ortaya qoyulan xarici ticarət strategiyası ixracın genişləndirilməsi, daxili bazarın qorunması və ticarət gəlirlərinin artmasına əsaslanır. Eyni zamanda, təhlillər göstərir ki, ticarətin asanlaşdırılması, ixrac edilən malların rəqabətədavamlılığı üçün Azərbaycan şirkətlərinə əlverişli şərait yaradılması da xüsusi diqqət mərkəzindədir. İxrac firmalarının beynəlxalq bazar araşdırmalarına dəstək verilməsi, ölkə ixracatçıları və ixracyönümlü istehsal sahələri ilə bağlı mükəmməl informasiya bazalarının formalaşdırılması da bu qəbildəndir.

O da məlumdur ki, beynəlxalq bazarlarda "Made in Azerbaijan" brendinin təşviqi üzrə kompleks və sistemli tədbirlərin həyata keçirilməsi də artıq ixrac həcminin artımı baxımından öz müsbət nəticələrini verməkdədir. Bu istiqamətdə işlərin uğurla davam etdirilməsi, ekspertlərin fikrincə, qarşıdakı dövrlərdə də müsbət nəticələrini verəcək. Eyni zamanda, uğurları daha da artırmaq məqsədilə paralel olaraq, ölkəyə xarici investisiyaların cəlb edilməsi istiqamətindəki tədbirlərin də genişləndirilməsi üçün müvafiq işlər aparılır. Hesab olunur ki, bu fonda qeyri-neft ixracı davamlı olaraq artarsa, ölkəyə xarici investisiya axını genişlənərsə, o zaman Azərbaycanın iqtisadi imkanları daha yüksək həddə çatacaq.

Hazırda ixrac həcminin yüksəldilməsi məqsədilə görülən işlər iqtisadiyyatın şaxələndirilməsini və investisiya qoyuluşunu sürətləndirmək, qeyri-neft sektorunun yüksək inkişaf tempini təmin etmək baxımından vacib sayılır. Yeri gəlmişkən qeyd edək ki, cari ildən daha intensiv xarakter alan iqtisadi islahatların, yatırılan sərmayələrin həcminin genişlənməsi də ölkə üçün vacib sayılan qeyri-neft sektorunda məhsul istehsalının artmasına və ixrac potensialının yüksəlməsinə şərait yaradıb.

Beynəlxalq reytinq agentliklərinin hesabatlarından da bəlli olur ki, son illərdə dünya bazarlarına çıxan Azərbaycan məhsullarına tələbat artır, "Made in Azerbaijan" brendinin coğrafiyası artıq genişlənir. Məhsullarımıza bir çox qabaqcıl ölkələrin ticarət mərkəzlərində tələbat artıb. Elə beynəlxalq maliyyə qurumlarının hesabatlarında ölkəmizin mövqeyinin ilbəil yaxşılaşması həyata keçirilən islahatların nəticəsidir. Bu fonda, yuxarıda qeyd olunduğu kimi, sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar üçün müvafiq stimulverici tədbirlər həyata keçirilir. Hökumət qeyri-neft sektorunun inkişafı üçün yeni tədbirlər görür, biznes, investisiya, bazar və əmək şəraitinin əlverişliliyinin təmin edilməsi və genişləndirilməsi məqsədilə addımlar atır. Belə vəziyyətdə xarici ticarət həcmində ixracın xüsusi çəkisinin dahada artması proqnozlaşdırılır. Artan ixrac Azərbaycanda iqtisadi inkişafı sürətləndirməklə yanaşı, həm də maliyyə sektorunda Azərbaycanın mövqelərini gücləndirir. Bu mənada hesab edilir ki, qarşıdakı dövr ərzində manat xarici valyutalara nisbətdə sabit qalacaq və hətta hökumət imkan verdiyi təqdirdə mövqelərini daha da gücləndirəcək.

***Tahir TAĞIYEV***

# Hay qəbilə-tayfa sürüsünün (şüurunun) morfo-etnogenezisində təbii amillərin rolu...

**Şərqi Afrika dağlıq yaylasının, Tanzaniya vadisinin, Nil çayının yuxarı axarlarının (Ağ Nil və Mavi Nil çaylarının hövzəsi), Qırmızı dəniz sahillərinin yarımsəhra və quru çöl bölgələrinin (ibtidai insan yaşayış məskənləri yerləşən ərazilərinin), əsasən Amxar, Oromiya və Afar bölgələrinin təbii şəraitinin hay qəbilə-tayfa sürüsünün (şüurunun) morfo-etnogenetik ilkinliyinə, qəbilə-tayfa həyat tərzinin yaranmasına təsirinin etnobioloji (iqlim və relyef amillərinin bu qəbilə sürüsünün bədən quruluşuna, psixologiyasına, ətraf mühitlə münasibətinə göstərdiyi təsirlər) nəticələri minilliklər boyu silinməyib, hətta əksinə, elə bir gücə malik olub ki, həmin nəticələr bu günümüzdə də bu sürünün yaşam tərzində ifadə olunmaqdadır.**

**(III məqalə)**

Və onların sonrakı dövrlər ərzində şüurunun formalaşmasında, şüur altqatının gizlinində, ictimai mühitə uyğunlaşmasında və digər xalqlarla münasibətlərində də bu ilkin gen daşıyıcıları onların üzvü hissəsini təşkil edib.

Bəs, bu dəyişməzlik və davamlılıq nədən qaynaqlanıb?

Bu səbəblərin mahiyyəti hay sürüsünün morfo-etnogenetik strükturunun formalaşmasına təsir edən təbii-coğrafi amillərin öyrənilməsinə dövrlər üzrə, mərhələlərlə yanaşıldıqda aydın olacaq:

- e.ə. II minilliyədək olan müddətdə;
- e.ə. II minillikdən VI əsrədək olan dövrdə;
- VI əsrdən sonrakı vaxtda;

Çünki bir sıra kompleks təbii-coğrafi amillərin doğurduğu nəticələr həmin mərhələlər üzrə hay sürüsünün sonrakı yaşam tərzinin formalaşması üçün əsas olub.

Belə ki, miladdan öncə II minilliyədək olan dövr ümumilikdə Afrika qitəsində, ayrıca onun şərqində (yuxarıda göstərilən ərazilərdə) baş verən təbii kataklizmlər dövrü kimi səciyyəvidir. Bu baxımdan hay qəbilə-tayfa sürüsünün ilkin mağara ocağı olmuş Ağ Nil və Mavi Nil çaylarının yuxarı axarlarında baş vermiş daşqınlar, dağ çaylarının mağara ocaqlarını dağıdıcılığı, Erta-Ale və Afar bölgələrində vulkan püskürmələri (Dallol vulkanı), Eduard, Kivu, Albert, Tana gölləri boyunca yer qabığının qırılması və çatlaması (dünyanın ən iri sınma qurşağı, uzunluğu 4500 km, eni 800-900 km bu hissədədir), nəticədə yaşayış yerlərinin sıradan çıxması, Qırmızı dəniz sahillərini bürümüş quraqlıq və su çatışmazlığı amxara, tiqran, tiqrau adlı (mənşəli) hay sürüsünün (hayların etnogenezisində bu qəbilələrin rolu böyük olub) başqa yerlərə köç etməsinə, yeni coğrafi məkanlara üz tutmasına səbəb olub. Bu təbii hadisələr onlarda təhlükəyə qarşı birlik hissini gücləndirib, qəbilə-tayfa sürüsünün yox olması qorxusu isə yeni-yeni ərazilərə köç etmək instinktini gücləndirib, qida və məkan təminatı hissinin şiddətlənməsinə, qonşularına münasibətdə düşmənçilik və həmməkan ərazilərə təcavüz hissinin davamlılığına, aborigen, köklü əhaliyə qarşı nifrət duyğusunun yaranmasına, bu şüur-davranış formasının pərdələnməsi üçün riyakarlıq və hiyləgərlik vərdişlərinə... imkan verib. Nəticədə bu vərdiş və duyğular onların həyat tərzinə çevrilib, təbii şəraitə uyğun morfoloji quruluş (sifət cizgilərinin codluğu, baş-alın quruluşunun mağara mühitinə uyğunlaşmaqla önə çıxması, zənci irqinin daşıyıcısı) kəsb etmələri ilə ifadə olunub. Belə ki, relyef formalarının intensiv təbii qüvvələrin təsiri ilə dağılması, parçalanması hay sürüsünün şüurunda və davranışında vəhşiliyin, dağıdıcılığın formalaşmasına, vulkan püskürmələri onlarda ətraf mühitə yabançı münasibətin, nifrət hissinin yaranmasına, quraqlıq hadisələrinin davamlılığı və geniş ərazi əhatə etməsi onların yığıcılıq vərdişlərinin, başqalarının mülkiyyətinə həsəd hissinin, eləcə də onları ələ keçirmək duyğusunun artmasına, bu kimi təbii hadisələrdən uzaq qalan əhali qruplarına qarşı isə düşmənçilik, paxıllıq münasibətlərinin güclənməsinə... gətirib çıxarıb.

Yaşadıqları ilkin mağara şəraitində kompleks təbii amillərin təsiri ilə bu cür özəl kompleks morfo-etno xüsusiyyətə malik olan hay sürüsü eramızın II-I minilliyində iki istiqamətdə hərəkət edərək daha əlverişli iqlim və relyef şəraitinə, yaşayış mühitinə malik əraziləri axtararaq, xüsusilə Aralıq dənizinin şərq sahillərində, ada və yarımadalarında (Krit və Kipr adaları, Frakiya və Finikiya əraziləri də daxil olmaqla) və Ərəbistan yarımadasının cənub hissəsindən, Ədən körfəzi sahillərindən keçərək Hind çayı hövzəsində məskunlaşıblar. Bu tayfa sürüsünün Hindistana axını e.ə. IV-III əsrlərdə də güclənib.

Hay sürüsünün morfo-etnogenetik xüsusiyyətlərində qida əldə etmək və əlverişli yaşayış məskəni seçmək məqsədinə çatmaq üçün cəngəllik vərdişləri ilə mübarizə aparması da məhz onların ilkin mağara şüurunun və qəbilə-tayfa varolma instinktinin nəticəsidir ki, bu hal e.ə. II minillikdə onlarda daha güclü olaraq genetik qan yaddaşlarına hopub. Qəbilə-tayfa sürüsünün parçalanaraq müxtəlif ərazilərə və müxtəlif istiqamətlərə ayrılmasına səbəb iqlimdə baş verən kəskin təbəddülatlar və mağara həyatının əlverişsizliyi, qida qıtlığı, təbii fəlakətlərin (vulkan püskürməsi, çayların daşması, zəlzələ, quraqlıq (e.ə. 2350-ci ildən sonra bərk istilər baş verib), relyefin parçalanması, yamacların sürüşməsi...) intensivliyi və qəbilələrarası mübarizənin güclənməsi olub. Mağara instinktləri hay sürüsündə qonşularına qarşı düşmənçilik və xəyanət hissinin güclənməsi e.ə. I minillikdə Yunan-İran müharibələrində hər iki tərəfin mövqeyindən vuruşmalarında ifadə olunan amillərdəndir.

Afrika qitəsində təbii-coğrafi şəraitin insanların morfo-etnogenetik xüsusiyyətlərinə təsiri ilə bağlı Rusiya Elmlər Akademiyasının akademiki V.Q.Bondur, tədqiqatçılar V.F.Krapivin, İ.İ.Potapov, V.Y.Soldatov, S.B.Çernetsov tərəfindən 2012-ci ildə işlənmiş elmi nəticələr sübut edib ki, ətraf mühit amili (təbii təbəddülatlar, qlobal coğrafi mühit dəyişiklikləri) genetik kod daşıyıcısı kimi xüsusilə nəzərə alınmaqda və insanın morfoetno genezisinin əsasını təşkil etməkdədir.

Həbəşistan dağlıq yayalasında, Afar (Avaş çayı boyunca) və Abbay vadilərində, ona bitişik Amxar dağlıq silsiləsində mağaralarda yaşayan və çoxluq təşkil edən amxara, tiqran və tiqrau qəbilələri sonrakı dövrlərdə (eramızın ilk illərində) ilkin, qədim xristianlığın daşıyıcıları olub, dünyada ən qədim kilsə-məbəd tikilisi də Danakil vadisində bina edilib. Hay qəbilə-tayfa sürüsünün hay kilsəsinin təsiri ilə dünyada qədim xristianlığa mənsub olmaları iddiaları da məhz bu amillə bağlıdır. Həmin qədimlik Həbəşistan ərazisində ilkin xristianlığın yaranması ilə əlaqəlidir. Təsadüfi deyil ki, neçə yüzilliklərdir müxtəlif ərazilərdə inşa edilən hay kilsələrinin görünüşü məhz Danakil vadisindəki qədim xristian məbədinin oxşarı olur. Eramızın I miniliyinin sonunda Frakiya ərazisində məskunlaşan hay sürüsü sonralar, Bizans imperiyası dövründə (V-VI əsrlərdə) müştərək dini idarəetməyə və mərkəzə malik olub. Hay kilsəsi Həbəşistanda yaranmış qədim xristian təlimlərinin əsasında guya özlərinə məxsus təriqətə - monofizik-qriqorian təriqətinə mənsubluğu ilə fərqlənməyə cəhd edib.

Eramızın VI əsrinədək olan müddətdə hay sürüsünün əsas məskunlaşdığı ərazilərdə yeni məskənlərə köç etmək istəyi, varolma və özlərini ifadəetmə instinktinin güclənməsi ilə yanaşı, onlar qonşu torpaqlar hesabına arealını genişləndirmək fikrindən də əl çəkməmişdi. Bu isə həmin dövrdə qəbilə-tayfa sürüsünün şüurunda buraxılan ən dərin izlərdən biri - daimi ərazilərin ələ keçirilməsi və tayfa ittifaqının yaradılması istəyi ilə bağlıdır. Tayfa ittifaqının yaranması istiqamətində hay kilsəsi, yeni yaşayış məkanlarının seçilməsi isə Aralıq dənizinin ada və yarımadaları (xüsusilə Frakiya yarımadası, Kipr və Krit adaları), Finikiya, Fələstin, Suriya, İran dövlətlərinin əraziləri, Mesopotamiya hövzəsi ilə bağlı idi. Bu dövrdə 395-ci ilədək Roma imperiyasının, sonrakı müddətdə Bizans və Sasanilər arasındakı müharibələrdə (hər iki tərəfin tərkibində) iştirak edən hay qəbilə-tayfa üzvlərində mağara şəraitində formalaşan genetik vərdişləri - vəhşilikləri, barbarlığı, dağıdıcılığı, insan qanına hərisliyi nəzərə alınıb. Afrika qitəsində e.ə. II-I minilliklər boyu baş verən müdhiş təbiət hadisələri məhz hay sürüsünün şüurunda və yaşam tərzində bu cür davranış-münasibət tərzinin formalaşması ilə nəticələnib. Sonrakı minilliklərdə bu morfo-etno özəlliklər daha da artaraq, dünya boyunca rişələnib. Miladın VI-VII əsrindən sonra Yaxın və Orta Şərqdə Ərəb xilafətinin yaranması və yayılması, aralıq orta əsrlərdə Xaçlı yürüşlərinin baş verməsində iri güc dövlətləri tərəfindən hay sürüsünün istifadə edilməsi ilk növbədə onların vəhşilikləri və xəyanəti ilə bağlı genetik kod daşıyıcısı olmaları ilə bağlılıq təşkil edib.

1905-1907-ci və 1918-1920-ci illərdə hay quldurlarının bütöv Azərbaycan hüdudunda müsəlman-türk xalqlarına qarşı törətdiyi qətliam-soyqırım faciələrinin oxşar hallarının hər yerdə eyni cür təkrarlanması (hamilə qadınların təhqir edilməsi, yaşlıların amansızlıqla qətlə yetirilməsi, uşaqların divarlara hörülməsi, cavanların dərisinin soyulması...) məhz hay sürüsünün ilkin mağara instiktlərinin və davranış tərzinin minilliklər boyunca güclü kod daşıyıcının təzahürləri olub. Təsadüfi deyil ki, XX əsrin sonlarında da eyni hallar təkrarlanıb.

Dünya tarixinin sonrakı mərhələlərində yaranan qanlı savaş (çevriliş) hadisələrinin mərkəzində təcrübə toplamış hay kilsəsi qəbil-tayfa sürüsünə güclü təsir imkanı qazanıb, sonrakı mərhələlərdə bu təsir dairəsi həm də geniş regionları əhatə edib. Təbii ki, bu regionların seçilməsi də hay kilsəsi tayfa üzvlərinin dəyişilməyən morfo-etno genetik xüsusiyyətləri ilə üzvü bağlılıq təşkil edir. Belə ki, hay kilsəsi XX əsrdə hay tayfa sürüsünün İran körfəzi ölkələrində yeni məskunlaşması proqramını qəbul etməklə BƏƏ, Qətər, Oman, Səudiyyə Ərəbistanı ölkələrində strateji məqsədlərinə uyğun olaraq yerləşmələri üçün bu dövlətlərin razılığını alıb, ilk öncə həmin yerlərdə hay kilsəsinin və hay məktəbinin tikilməsini planlaşdırıblar... Bu barədə növbəti yazılarımızda.

*Qismət* **YUNUSOĞLU**
***Bakı Dövlət Universitetinin müəllimi***

**Artıq məlum olduğu kimi, Prezident İlham Əliyev bu ilin əvvəlində ölkə əhalisinin sosial vəziyyətinin yaxşılaşması istiqamətində bir sıra sahələrdə humanist addımların atılmasına dair ardıcıl fərmanlar imzalayıb. Bu addımlardan biri də banklardan dollarla kredit götürmüş və manatın devalvasiyaları nəticəsində götürdüyü məbləği dəfələrlə artıq ödəməyə məhkum edilmiş şəxslərin müdafiəsinə yönəlib.**

# UNİBANK-ın Şahin adlı əməkdaşının Prezident Fərmanına qarşı özbaşınalığı - Maliyyə ... Palatasının 3451 manat kompensasiya təyin etdiyi jurnalistdən hələ də banka ödəniş tələb edilir...




*"Müştəri üzləşdiyi bu halla əlaqədar Maliyyə Bazarlarına Nəzarət Palatasının qaynar xəttinə (966) müraciət etsin və şikayətini bildirsin, həmin qurum bu məsələ ilə bağlı ölçü götürəcək"*

## Ruslan Atakişiyev: *"Bankın müştəridən əlavə ödəniş tələb etməsi qanunsuzdur"*

Açıqlanan rəqəmlərdən bəlli olur ki, bu vətəndaşların ümumi sayı 800 min nəfər civarındadır. Fevralın 28-də imzalanan Fərmanın icrası Maliyyə Bazarlarına Nəzarət Palatasına həvalə olunub və proseslərin gedişi bu qurumun üzərinə qoyulan vəzifənin öhdəsindən layiqincə gəldiyini düşünməyə əsas verir. Belə ki, çətin və üzücü proses olmasına baxmayaraq, Palata qoyulan müddətdə banklara borclu qismində tanınan bütün vətəndaşların bank hesablarının auditini apararaq onlara hansı məbləğin qaytarılmalı olduğunu müəyyənləşdirib və nəticələri operativ şəkildə yaradılan portalda yerləşdirib. Yəni siyahıda adı olan vətəndaş heç bir bank məmuru ilə təmasa girmədən və ya hansısa bürokratik əngəllə üzləşmədən adını portalda yerləşdirilmiş siyahıda taparaq hansı məbləği alacağını öyrənir.

Lakin maraqlıdır ki, bu kompensasiyaların verilməsi üçün banklara kifayət qədər dövlət vəsaiti ayrılsa da, bəzi banklar bu prosesdən də öz mənfəətləri üçün istifadə, daha doğrusu, sui-istifadə etməyin yollarını axtarmaqda davam edirlər. Belə banklardan biri də UNİBANK-dır. Qəzetimizin ötən saylarından birində artıq məlumat vermişdik ki, adıçəkilən bank hələ də müştərilərindən aylıq ödəniş tələb edir, baxmayaraq ki, həmin müştərinin adı artıq MBNP-nın saytındakı kompensasiya ödəniləcək şəxslərin siyahısında var. Belə müştərilərdən biri də elə ötən dəfə də barəsində yazdığımız əməkdaşımız Samirə Səfərovadır. Təfərrüatlarını ötən yazımızda açdığımızdan geniş təqdimata ehtiyac duymayaraq onu bildirmək istəyirik ki, əməkdaşımıza hesablanan kompensasiyanın məbləği artıq portaldakı siyahıda göstərilib və bu məbləğ 3451 manat müəyyən edilib. Yəni bu o deməkdir ki, S.Səfərovanın bankdan götürdüyü kredit məbləği tamamilə ödənilib, bu illər ərzində artıq ödədiyi məbləğ isə kompensasiya şəklində ona qaytarılacaq. O halda bu, onun artıq banka heç bir borcunun qalmadığı anlamına gəlir. Lakin UNİBANK-ın əməkdaşı, nədənsə, belə düşünmür. Bankın az qala hər gün zəng vuran işçiləri əməkdaşımızdan mart-aprel ayları üçün (Fərman fevralın 28-də imzalanıb və imzalandığı tarixdən qüvvəyə minib-red.) ödəniş tələb edirlər. Dünən isə bankın Şahin adlı əməkdaşı (tel.:055-252-65-71) Samirə xanıma zəng vuraraq deyib ki, ödəmədiyiniz borcunuzun (!) üstünə hər keçən gün cərimə gəlir və ayda 120 manat ödəməli olan əməkdaşımızın, guya iki ay üçün banka 256 manat borcu yaranıb! Maraqlıdır, Prezidentin məlum Fərmanının icrası üzrə bank aldığı artıq məbləği geri verməyə yükümlüdürsə və müştərinin bu vaxta qədər ödədiyi məbləğin 3451 manatı ARTIQ ÖDƏNDİYİ ÜÇÜN ona qaytarılmalıdırsa, bank hansı əsasla ondan yenə aylıq ödəniş tələb edir və hansı qanuna dayanaraq bu "borcun ödənilməməsinə görə" faiz qismində əlavə cərimə kəsir?

*"Bəzi banklar vəziyyətdən sui-istifadə etmək istəyir"*

**Bankın əməkdaşımızdan əsassız ödəniş tələb etməsinin yanlış olduğunu deyən iqtisadçı ekspert Ruslan Atakişiyev "Bakı-Xəbər"ə bildirdi ki, bu, UNİBANK-ın əməkdaşlarının qanunsuz hərəkətlərindən xəbər verir.** "Hesab edirəm ki, bankın müştəridən əlavə ödəniş tələb etməsi qanunsuzdur. Müştəri üzləşdiyi bu halla əlaqədar Maliyyə Bazarlarına Nəzarət Palatasının qaynar xəttinə (966) müraciət etsin və şikayətini bildirsin, həmin qurum bu məsələ ilə bağlı ölçü götürəcək. Bu qurum dövlət tərəfindən banklara nəzarət edir. Olsa bilsin, hələ əmr Palatadan banka gedib çatmayıb. Ancaq bununla belə, tam ödəniş edildiyi halda bankın ixtiyarı yoxdur ki, müştəridən pul tələb etsin. Prezident fərman verib və bu fərman icra edilməli, müştəriyə çatacaq kompensasiya ona ödənilməlidir. Bankın müştərini narahat etməyə ixtiyarı yoxdur. Bəzi banklar vəziyyətdən sui-istifadə etmək istəyir. Ancaq bu yolverilməzdir"-deyə R.Atakişiyev bildirdi.

*İradə SARIYEVA*

---

**Aprelin 18-də Beynəlxalq Mətbuat Mərkəzində (BMM) "Olimpsport" jurnalının yaranmasının 10 illik yubileyi münasibətilə tədbir keçirilib. Tədbirdə Azərbaycan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov, "Olimpiya dünyası" qəzetinin baş redaktor müavini, Əməkdar jurnalist Aslan Şirəliyev, Azərbaycan Güləş Federasiyasının sərbəst güləş üzrə vitse-prezidenti Firdovsi Umudov, 1-S kateqoriyalı hakim Hicran Şərifov və Azərbaycan Voleybol Federasiyasının baş katibi Elşən İsmayılov, eləcə də idman ictimaiyyətinin tanınmış nümayəndələri və aprel şəhidlərinin ailə üzvləri də iştirak ediblər.**

# "Olimpsport"un yubileyində 10 ilin mükafatını Hacı Əliyevə aprel şəhidinin atası təqdim etdi

Çıxışlardan əvvəl jurnalın 10 illik fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib. Videoçarxda "Olimpsport" jurnalının təbliğ etdiyi idman və Olimpiya Hərəkatını əks etdirən görüntülərlə yanaşı, cəmiyyətdə nüfuz sahibi olan tanınmış şəxslərin bu nəşr barəsində söylədikləri fikirlər öz əksini tapıb. Sonra Azərbaycan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov ölkəmizdə idmanın inkişafı barəsində çıxış edərək bildirib ki, bu inkişafda "Olimpsport" jurnalının özünəməxsus yeri olub. Millət vəkili çıxışının sonunda jurnalın baş redaktoru Ramin Allahverdiyevə idman jurnalistikasının inkişafında səmərəli fəaliyyətinə, 10 illik yubiley münasibətilə diplom təqdim edib.

Tədbirdə iştirak edən "Olimpiya dünyası" qəzetinin baş redaktor müavini, Əməkdar jurnalist Aslan Şirəliyev, Azərbaycan Güləş Federasiyasının sərbəst güləş üzrə vitse-prezidenti Firdovsi Umudov, 1-S kateqoriyalı hakim Hicran Şərifov və Azərbaycan Voleybol Federasiyasının baş katibi Elşən İsmayılov "Olimpsport" jurnalının rəhbərliyi və yaradıcı heyəti barəsində öz fikirlərini bildiriblər. "Olimpsport " jurnalının baş redaktoru, sərbəst güləş üzrə Əməkdar məşqçi, Fəxri bədən tərbiyəsi və idman işçisi Ramin Allahverdiyev çıxış edərək tədbirdə iştirak edən qonaqlara öz minnətdarlığını bildirib.

Çıxışlar başa çatdıqdan sonra Azərbaycan Mətbuat Şurası, "Olimpiya dünyası" qəzeti və "Olimpsport " jurnalının birgə keçirdiyi sorğu əsasında "son 10 ilin ən yaxşıları" nominasiyası üzrə nəticələr açıqlanıb. Müxtəlif nominasiyalar üzrə "Qızıl 10-luq"da yer alanlara mükafatlar təqdim olunub. Mükafatların təqdimatı zamanı jurnalın baş redaktoru Ramin Allahverdiyevin təşəbbüsü ilə "son 10 ilin ən yaxşı Dünya çempionu" nominasiyasını bu ay Avropa çempionu olub, qələbəsini aprel şəhidlərinə həsr edən Hacı Əliyevə şəhid Mahir Quliyevin atası təqdim edib. Tədbir bədii hissə ilə davam edib.

**"Qızıl 10-luq" idman soğusunun qalibləri:**

Son 10 ilin ən yaxşı Olimpiya mükafatçısı - Toğrul Əsgərov (İkiqat Olimpiya mükafatçısı, Olimpiya çempionu, dəfələrlə Avropa və Dünya çempionatlarının qalibi və mükafatçısı)



Son 10 ilin ən yaxşı dünya çempionu - Hacı Əliyev (Üçqat Avropa, üçqat Dünya çempionu və Olimpiya mükafatçısı )

Son 10 ilin ən yaxşı Avropa çempionu - Cəbrayıl Həsənov (Üçqat Avropa çempionu, Olimpiya mükafatçısı )

Son 10 ilin ən yaxşı idman mütəxəssisi - Fərid Mansurov (Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri, Olimpiya çempionu )

Son 10 ilin ən yaxşı məşqçisi - Firdovsi Umudov (Dünyanın ən yaxşı məşqçisi, Dünya kubokunun sahibi, Əməkdar məşqçi)

Son 10 ilin ən yaxşı hakimi - Hicran Şərifov (1-S kateqoriyalı hakim, qızıl fit sahibi)

Son 10 ilin ən yaxşı idman rəhbəri - Sadıq Sadıqov (Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti, "Neftçi" İKİB-in idarəetmə aparatının rəhbəri)

Son 10 ilin ən yaxşı pəhləvanı - Vüsal Cavadov (zorxana və pəhləvani güləş üzrə üçqat Avropa, üçqat Dünya çempionu və yeddiqat Dünya rekordçusu)

Son 10 ilin ən yaxşı idman xadimi - Oleq Krapivin (Əməkdar bədən tərbiyəsi və idman xadimi, Dünya çempionu)

Son 10 ilin ən yaxşı futbol verilişi - "Futbol saatı" ("Xəzər" TV )

Son 10 ilin ən yaxşı döyüş klubu - "TT Fight "

**Fəxri diplomla təltif edilənlər:**

Rumıniyanın paytaxtı Buxarestdə keçirilən Avropa çempionatında göstərdiyi əzmkarlığa görə

Ağahüseyn Mustafayev (Avropa çempionatının gümüş medal sahibi)

Gənclərin inkişafında göstərdiyi xidmətlərə görə

Rauf Rüstəmov (Tovuz Gənclər Evinin direktoru)

**Ən çox istifadə edilən qidalardan biri də yumurtadır. Demək olar ki, əksər yeməklərin hazırlanmasında ondan istifadə edirlər. Azərbaycanda əhalinin qida rasionunda yumurta mühüm çəkiyə malikdir. Bir sıra şirniyyatların hazırlanmasından tutmuş, digər müxtəlif qidalara qədər yumurtalardan geniş istifadə edilir.**

# Əhaliyə qarşı dəhşətli ərzaq cinayəti - inkubasiyadan qayıtmış yumurtalar pərakəndə satışa yönəldilir...

## *Rəsul Cahangirli: "İnkubator sexlərində yararsız olan bu cür yumurtaların realizə olunması barədə deyilənlər həqiqət ola bilər"*



*"Qida Təhlükəsizliyi Agentliyi bununla bağlı qəti tədbirlər görməlidir, yoxsa gec olacaq"*

Bununla belə, sözügedən məhsul aztəminatlı ailələrin qida rasionunda mühüm çəkiyə malikdir. Məlumat üçün onu da qeyd edək ki, 7 günə qədər olan yumurtalar dietik yumurta adlanır və onların qiyməti adətən daha yüksək olur. 7 gündən sonra isə adi mətbəx yumurtası adlanır.

O da məlumdur ki, zaman-zaman bazarlarda saxta, köhnə və keyfiyyətsiz yumurtaların satışı müzakirə mövzusu olur. Bununla bağlı əsaslı şikayətlər səslənir. Görürsən ki, xaricdən gətirilən yumurta yerli yumurta adı ilə satılır. Yaxud da istehlakçılar aldadılaraq onlara inkubator yumurtası kənd yumurtası əvəzinə verilir. Standartlara görə, yumurtanın üzərində onun buraxılma tarixi qeyd edilməlidir. Çox vaxt buna da əməl edilmir və nəticədə yumurtanın mənşəyi bilinmir. Belə hallar da dəfələrlə müşahidə olunub.

Bu arada növbəti dəfə sözügedən məsələ aktuallaşmağa başlayıb. Məlumata görə, aprel ayında keyfiyyətsiz yumurta satışının artması heç də təsadüfi deyil. Ay ərzində belə neqativ halların daha da artacağı gözlənir. Bu onunla əlaqələndirilir ki, aprel ayı inkubator mövsümüdür. Cücə çıxarmaq üçün minlərlə yumurta inkubator sexlərinə verilir. Həmin yumurtaların heç də hamısından cücə cıxmır. Adicə kənddə təbii şəraitdə belə, toyuq yumurtaların üstündə kürt oturanda heç də onların hamısından cücə çıxmır. Bir sıra hallarda 15 yumurtadan üçündən (bəzən daha çox) cücə çıxmır. Adətən həmin yumurtalar atılır. Özü də belə yumurtalar xarab olmaqla yanaşı, çox pis qoxuya malik olur. İnkibator sexlərində isə belə yumurtaların sayı daha çox olur. Hansı ki, onlardan cücə çıxmır. Məlumata görə, həmin yararlı olmayan yumurtalar təzə yumurtalara qarışdırılaraq satışa yönəldilir. Nəticədə hər satılan 30 yumurtadan 3-4-ü keyfiyyətsiz olur. Bu səbəbdən son vaxtlar bazarlarda yararsız və keyfiyyətsiz yumurtalar artıb. Onu da qeyd edək ki, cücə çıxarmaq üçün mayalı yumurtalardan istifadə edilir.

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov da sözügedən iddiaları təsdiqləyib: "Aprel ayı broylerin inkubator mövsümüdür. Cücə əldə etmək istəyən fermerlər yumurtaları cücə çıxartması üçün inkubatorlara müraciət edirlər. 3 gündən sonra yumurtaların neçəsindən cücə çıxmayacağı bəlli olur. Bu müddətdən sonra cücə çıxarmaq üçün yararsız olan yumurtalar satışa buraxılır. Amma onlar artıq temperatura məruz qaldıqları üçün olduqca keyfiyyətsiz və təhlükəli olurlar". Göründüyü kimi, sözügedən problem ciddidir. Bununla bağlı müvafiq tədbirlər görülməsə, bunun çox mənfi fəsadları ola bilər. O baxımdan yaranan vəziyyətdən çıxış yolunu ekspertlər nədə görürlər?

**Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, bu kimi məlumatlarda həqiqət ehtimalı böyükdür:** "Çünki məhz yaz mövsümündə keyfiyyətsiz yumurtalar daha çox istehlakçılara satılır. Məsələ ondadır ki, qış fəslindən sonra təbii şəraitdə yumurta istehsalı artır. Havalar istiləşdiyi üçün həyət şəraitində saxlanan toyuqlar daha çox yumurta qoyur. Bu zaman həmin yumurtaların bir qismi satışa çıxarılır. Adətən bu mövsümdə cücə istehsalı üçün həyət yumurtalarına daha çox önəm verilir. Çünki həmin yumurtadan əldə olunan cücənin əti daha keyfiyyətli olur. Bu da, nəticə etibarilə, həyət yumurtalarına tələbatın artmasına gətirib çıxarır. Ona görə də yaranan vəziyyətdən sui-istifadə edən işbazlar keyfiyyətsiz yumurtaları müxtəlif ad altında əhaliyə satırlar. İnkubator sexlərində yararsız olan bu cür yumurtaların realizə olunması barədə deyilənlər həqiqət ola bilər. Çünki son vaxtlar həqiqətən də əhali arasında keyfiyyətsiz yumurtalarla bağlı söz-söhbətlər artır. Ancaq belə yumurtaların satışının qarşısı alınmasa, bunun çox təhlükəli nəticələri ola bilər. Ona görə də Qida Təhlükəsizliyi Agentliyi bununla bağlı qəti tədbirlər görməlidir, yoxsa gec olacaq. Ancaq çox təəssüflər olsun ki, qurumun timsalında biz bunu görmürük. Bununla bağlı necə mübarizə aparmağın mexanizmi ortada yoxdur. Hər hansı fəaliyyət proqramına malik deyil. Baxmayaraq ki, əhaliyə keyfiyyətsiz yumurtanın satılması problemi neçə illərdir mövcuddur. Bununla yanaşı, hesab edirəm ki, istehlakçılar sözügedən məsələ ilə bağlı maarifləndirilməlidirlər. Yəni ayıq-sayıq olsunlar, belə yumurtaları digərlərindən ayırd edə bilsinlər".

***Vidadi ORDAHALLI***

**Bakı az qala iki əsrdir Azərbaycanın paytaxt şəhəridir. Buna baxmayaraq, indiyə kimi Bakının paytaxt statusu daşıması haqqında müvafiq qanun qəbul edilməyib. Yeri gəlmişkən, Azərbaycan ikinci dəfə dövlət müstəqilliyi qazandıqdan sonra Bakının rəsmi statusu haqqında qanun qəbul edilməsi gündəmə gətirilsə də, hələ ki, bu qanun qəbul olunmayıb.**

# Bakının paytaxt statusunun rəsmiləşdirilməsi mövzusu aktuallaşır





***Fərəc Quliyev:** "Ancaq hələ ki, Bakının paytaxt statusu ilə bağlı gündəlikdə məsələ yoxdur"*

***Firdovsiyyə Əhmədova:** "Milli Məclis tərəfindən Paytaxt günü və Bakının rəsmi statusu haqqında qanun qəbul edilərsə, bunun tam tarixi əsası var"*

Bir neçə il əvvəl hətta Milli Məclisdə "Bakı şəhərinin statusu haqqında" qanun layihəsinin hazır olduğu bildirilsə də, parlament tərəfindən hələ də qəbul edilməyib.

Tarixçilər bildirirlər ki, bu haqda qanunun indiyə qədər qəbul edilməməsi müəyyən səbəblərlə bağlıdır. Onlar qeyd edirlər ki, Bakı bələdiyyəsi mövcud olsa da, şəhərin seçkili meri yoxdur. Bakının paytaxt statusu ilə bağlı qanun qəbul edilməsi üçün bir sıra məsələlərin həlli vacibdir.

Artıq dövlət səviyyəsində bu istiqamətdə addımlar atılır. Son zamanlar Bakı şəhərinin müxtəlif ərazilərinə status verilməsi məsələsi həll edildikdən sonra yenidən Bakının paytaxt statusu məsələsinə qayıdılacağını deyən tarixçilər ümid edirlər ki, gec-tez, bu məsələ öz həllini tapacaq.

Tarixçilər qeyd edirlər ki, 1859-cu il may ayının 29-30-da baş verən güclü zəlzələ nəticəsində Şamaxı şəhəri tamamilə dağıntıya məruz qalıb və Çar II Aleksandrın 6 dekabr 1859-cu il tarixli fərmanı ilə Şamaxı quberniyasının mərkəzi Bakıya köçürülüb və adı dəyişdirilərək Bakı quberniyası adlandırılıb. Həmin fərmanla Bakı şəhəri quberniya mərkəzi statusu alıb. Həmin dövrdə şəhər əhalisinin sayı 13 min nəfər təşkil edirdi.

10 aprel 1840-cı ildə təşkil edilən Kaspi vilayəti tərkibində mərkəzi Bakı şəhəri olmaqla Bakı qəzası yaradılıb. Çar I Nikolayın 1846-cı il 14 dekabr tarixli fərmanı ilə Şamaxı quberniyası yaradıldıqda Bakı qəzası həmin quberniyanın tərkibinə daxil edilib.

Azərbaycan Milli Şurasının 1918-ci ildə qəbul etdiyi Azərbaycanın İstiqlal Bəyannaməsində Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı haqqında maddə yox idi. Azərbaycan Sovet Sosialist Respublikasının 1921-ci ildə qəbul edilən Konstitusiyasına da paytaxt haqqında maddə daxil edilməyib. Azərbaycan SSR-in 1937-ci il və 1978-ci il konstitusiyalarında isə Bakı şəhərinin respublikanın paytaxtı olması təsbit edilib.

**Millət vəkili Fərəc Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, hələlik Milli Məclisdə Bakıya paytaxt statusu verilməsi ilə bağlı hər hansı bir məsələ müzakirə edilmir.** Ancaq bu məsələnin aktual olduğunu deyən F.Quliyevin sözlərinə görə, Prezident İlham Əliyev ölkə ziyalıları, mədəniyyət xadimləri ilə görüşərkən bu təklif orada da səsləndirilib. "Bakının mədəni mərkəzlərinin formalaşdırılması ilə bağlı həmin görüşdə təkliflər səsləndirildi. Yəni Bakının ayrı-ayrı rayonlarına statusların verilməsi və onların qorunması diqqətdə olan məsələlərdən biridir. Yaxud da Milli Məclisdə başqa millət vəkilləri də, mən də təklif etmişik ki, Böyük Bakı Bələdiyyəsi yaradılsın. Bu kimi məsələlər müzakirə edilir. Hazırda başqa inzibati yanaşmalar var. Bir sıra müəssisələrin paytaxtdan bölgələrə köçürülməsi və s. məsələlər aktualdır. Hesab edirəm ki, bunlar dəyərli təkliflərdir. Bunun nəzərə alınacağını düşünürəm. Ancaq hələ ki, Bakının paytaxt statusu ilə bağlı gündəlikdə məsələ yoxdur"-deyə F.Qulieyv qeyd etdi.

**Tarixç üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova isə hesab edir ki, Bakının paytaxt statusu haqqında qanun qəbul edilməsi üçün kifayət qədər əsaslar var.** Alimin qeyd etdiyinə görə, Bakının paytaxt olmasına dair xüsusi qanunun qəbul edilməsi zəruridir: "Bakının paytaxt statusu almağa tarixi zəmini də var. Bunun üçün müvafiq bir gün də var ki, həmin günü Paytaxt günü elan etmək tam mümkündür.

Bilirik ki, 1918-ci il sentyabrın 15-də Bakı azad elilib və müstəqil Azərbaycanın paytaxtı elan olunub. Həmin günün Paytaxt günü kimi qeyd edilməsi bizə tarixi mənəvi haqq verir. Bakı Azərbaycan Respublikasının paytaxtı olub və indi də paytaxtıdır. Bakının paytaxt statusu haqqında qanun qəbul edilməsi bir tarixi hadisə olardı. Onsuz da Bakı Azərbaycanın rəsmi paytaxtıdır. Əlbəttə, paytaxtı dəyişmək olur, ancaq Paytaxt gününü həmişə qeyd etmək mümkündür. Niyə məhz Bakının Azərbaycanın paytaxtı kimi tanınması məsələsi bizim mütəfəkkirlərimiz tərəfindən tarixən müzakirə olunub və o təkcə Azərbaycanın deyil, bütün Cənubi Qafqazın mədəni fikir mərkəzi kimi status alıb. Milli Məclis tərəfindən Paytaxt günü və Bakının rəsmi statusu haqqında qanun qəbul edilərsə, bunun tam tarixi əsası var. Bu imkan verir ki, məsələ reallaşsın".

***İradə SARIYEVA***

Millət vəkili Fazil Mustafa mətbuata açıqlamasında çox ciddi bir mövzuya toxunaraq bildirib ki, sanki kimlərsə bilərəkdən ölkədə narkomaniyanı yaydıqları kimi, fahişəliyi də yayırlar: "Azərbaycanda fahişəxanalar baş alıb gedir. Otellərdə və digər obyektlərdə əxlaqsızlıq hökm sürür. Hərənin bir himayəçisi var".

# Bakıda "kütləvi fahişəxanalar" anonsu - niyə konkret ünvanlar göstərilmir...

***Fazil Mustafa:*** *"Araşdırıb bizə bilgilər versələr, biz həmin məlumatlar əsasında dəqiq ünvanlara müraciət edərik"*

***Novella Cəfəroğlu:*** *"Mən burada konkret faktları niyə açıqlamalıyam ki?"*

***Mehman Muradlı:*** *"... buna ümumi yox, faktlar əsasında yanaşmaq lazımdır"*







Dilarə Əliyeva adına Azərbaycan Qadın Hüquqları Müdafiə Cəmiyyətinin sədri, hüquq müdafiəçisi Novella Cəfəroğlu isə mediaya açıqlamasında millət vəkilinin fikirləri ilə razılaşdığını bildirib. N. Cəfəroğlu deyib ki, QHT-lərin fəaliyyətinin məhdudlaşdırılması fahişəxanaların artmasına səbəb olub: "Fazil Mustafanın səsləndirdiyi fikirlərlə razıyam. Əsasən gənc oğlanlar və qızlar bu işlərlə məşğuldurlar. Gənc qızları rayonlardan Bakıya gətirib fahişəliyə cəlb edirlər. Buna hüquq-mühafizə orqanları ciddi nəzarət etməlidirlər. Əxlaq polisi Azərbaycanda var və ya yoxdur, onu dəqiq bilmirəm, amma onlar birbaşa bu işlə məşğul olmalıdırlar".

N.Cəfəroğlu qeyd edib ki, QHT-lərin fəaliyyəti məhdudlaşdırıldıqdan sonra rayonlara gedib seminarlar keçirə bilmirlər. Çünki buna maddi imkanları yoxdur: "Cəmiyyəti stabil saxlayan QHT-lər idi. Bununla yanaşı, televiziyalarımızda bayağı, şou xarakterli verilişləri ləğv edib, təlim-tərbiyə məsələlərini qaldırmaq lazımdır. Televiziyalarımızda əxlaqla bağlı verilişlər hazırlanmalıdır".

N.Cəfəroğlu diqqətə çatdırıb ki, gəncləri əxlaqsızlığa sövq edənlər ifşa olunmalı, cəmiyyət də bununla mübarizə aparmalıdır.

Hər iki şəxs cəmiyyətdə kifayət qədər tanınan və statusları olan adamlardır. Onların ümumi mənada toxunduqları mövzu doğrudan da ciddidir. Ancaq, göründüyü kimi, hələlik bu məsələ ümumi anlamda, cəmiyyətin problemi kimi ictimailəşdirilir. Bu baxımdan da maraqlıdır, onlar bu faktları hardan əldə ediblər, səsləndirdikləri iddialarla bağlı konkret ünvan və şəxs adları varmı və ümumiyyətlə, bununla bağlı hansısa rəsmi qurumlara şikayətlər ediblərmi?

**Millət vəkili Fazil Mustafa "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə məlumatları o daha çox Daxili İşlər Nazirliyi tərəfindən yayılan rəsmi məlumatlardan əldə edir:** "Həmin məlumatlarda belə yuvaların aşkarlandığı göstərilir. Biz həmin faktların araşdırılması ilə məşğul deyilik. Ümumi tendensiyanı təhlil edib görürük ki, royonlarda və paytaxtda bu istiqamətdə fəaliyyət genişlənib. Belə halların çox vaxt qarşısı kimlərinsə maraqları səbəbindən alınmır. Bəli, biz belə bir həyəcan təbilini çalmışıq ki, narkomaniya və fahişəlik geniş şəkildə yayılır. Biz siyasətçi olaraq ümumi tendensiyanı göstərə bilirik. Qalan işi araşdırmaçı jurnalistlər və ya ekspertlər həyata keçirməlidirlər. Araşdırıb bizə bilgilər versələr, biz həmin məlumatlar əsasında dəqiq ünvanlara müraciət edərik".

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu "Bakı-Xəbər"ə bildirdi ki, onlarda belə konkret faktlar var:** "Pasportları əlindən alınıb, fahişəliyə cəlb edilən adamlarla bağlı əlimizdə konkret faktlar olub. Mən burda konkret faktları niyə açıqlamalıyam ki? Əlimizdə olan belə faktları biz lazımi orqanlara təqdim etmişik və edirik. Təbii ki, fakt olmasa, belə ciddi iddia ilə çıxış etmərik. Bunu yalnız ölkənin daxilinə şamil etməməliyik. Ölkənin xaricində də belə faktlar mövcuddur. Şəxsən mən hər dəfə Türkiyəyə gedəndə utanıram. Orada əxlaqsızlıqla məşğul olan qadınlarımızı bizə göstərib başımıza qaxınc edirlər".

Bəs belə hallarla hüquq müstəvisində necə mübarizə aparılmalıdır?

Hüquqşünas Mehman Muradlı qəzetimizə bildirdi ki, qanunvericilik bu fəaliyyətləri qadağan edir: "Əxlaqsızlıq yuvaları saxlama, əxlaqsızlığa cəlb etmə kimi hərəkətlər Cinayət Məcəlləsinin uyğun maddələri ilə təqib edilir və bunlara görə sərt cəza növləri müəyyənləşib. Hətta DİN-in tərkibində bununla məşğul olan ayrıca bir baş idarə də var. Biz yayılan rəsmi məlumatlardan görürük ki, bu problemlə mübarizə aparılır. Çünki mütəmadi şəkildə belə halların ifşa edildiyi rəsmən bəyan olunur. Kimdəsə daha ciddi faktlar varsa, bunu əlaqədar qurumlara təqdim etməlidirlər. Ola bilər ki, yerlərdə kimlərsə buna göz yumur və ya həqiqətən nəzərdən yayınır. Söhbət cinayət əməli ilə mübarizədən gedirsə, buna ümumi yox, faktlar əsasında yanaşmaq lazımdır".

*Məhəmmədəli QƏRİBLİ*

---

**Əksər marşrut avtobusunda "itən əşyalara görə sürücü məsuliyyət daşımır" tipli elanlarla əksər istifadəçilər rastlaşıb. Elə bu elanın özü məsələnin nə qədər problemli olduğunu göstərir. Çox güman ki, sürücülər bu hallarla tez-tez üzləşirlər və bu vəziyyətdə əşyasını itirənlərin ilk müraciət etdikləri şəxs avtobusun sürücüsü olur.**

# İctimai nəqliyyatda kameraların özü var, işi yoxdur...



Bəli, sürücünün itən əşyadan xəbəri ola da, olmaya da bilər. Hətta həmin itən əşyanı son dayanacaqda sürücünün özü də götürə bilər. İçində hər hansı dəyərli, qiymətli bir şey varsa, onda onun "buxarlanması" da mümkündür. Ola da bilər ki, həqiqətən, həmin əşyanı bir başqası götürüb və ondan sürücünün xəbəri olmayıb...

İctimai nəqliyyatda yaşanan xoşagəlməz halların qarşısının alınması və bu sahədə müəyyən işlərin görülməsi üçün avtobuslara kamera quraşdırılıb.

**Kamera ona görə quraşdırılıb ki, bir çox cinayətin üstünün açılmasında və ya qarşısının alınmasında, həmçinin, avtobuslara zərər vuran, nalayiq hərəkətlər edən şəxslərin üzə çıxmasında rolu olsun.**

Ancaq apardığımız araşdırma zamanı məlum oldu ki, əksər avtobusa quraşdırılan kameralar formal xarakter daşıyır. Yeni avtobusa quraşdırılan kamera işləmir, sadəcə, görüntü olaraq nəqliyyat vasitəsinə quraşdırılıb. Hətta avtobuslarda kameraların formal olaraq quraşdırıldığını sürücülər də etiraf edir.

**Məsələ ilə bağlı məlumat verən Bakı Nəqliyyat Agentliyinin mətbuat xidmətinin rəhbəri Mais Ağayev bildirdi ki, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən, müntəzəm marşrut xətti üzrə istismarda olan avtobuslarda nəqliyyat vasitəsinin daxili salonunu və xaricdən dörd tərəfini görməyə imkan verən kameralar olmalıdır:** "Eyni zamanda, bu kameralar qeydə alınan görüntünü 15 gün yadda saxlayan yaddaş qurğusu ilə təchiz edilməlidir. Qeyd edim ki, bu tələbin icrası ilə bağlı BNA tərəfindən daşıyıcılara müvafiq göstərişlər verilib. Əksər avtobuslarda bu kameralar işləkdir. Amma bəzən hansısa avtobusda kamera işləmir, yaxud texniki nasazlıq yaranır. Belə hallar aşkar edildiyi zaman daşıyıcıya xəbərdarlıq edilir. Məlum məsələ araşdırılaraq daşıyıcı şirkətə çatışmazlığın aradan qaldırılması ilə bağlı göstəriş veriləcək".

***Mais Ağayev:*** *"Müntəzəm marşrut xətti üzrə istismarda olan avtobuslarda nəqliyyat vasitəsinin daxili salonunu və xaricdən dörd tərəfini görməyə imkan verən kameralar olmalıdır"*

***Azər Allahverənov:*** *"İctimai nəqliyyatda kameranın olması təhlükəsizlik baxımından vacibdir"*

**Nəqliyyat məsələləri üzrə ekspert Azər Allahverənov qeyd etdi ki, qanunvericiliyin tələbinə əsasən, salonda görüntünün qeydiyyatını aparan kameralar quraşdırılmalıdır:** "Məlumdur ki, sərnişindaşıma ilə bağlı müəyyən tələblər tətbiq olunub. Həmin tələblərdən biri də salonda görüntünü aparan videokameraların quraşdırılmasıdır. Bəli, bu gün bəzi avtobuslarda kameralar işlək vəziyyətdə deyil. Kameraların işlək vəziyyətdə olmamasının müxtəlif səbəbləri var".

**A.Allahverənovun sözlərinə görə, ictimai nəqliyyatda kameranın olması təhlükəsizlik baxımından vacibdir. Məlumdur ki, avtobus salonunda bir çox hadisələr baş verə bilər. Həmin hadisələrin araşdırılması baxımından videogörüntülərin olması vacibdir.**

Ekspertin fikrincə, hansı daşıyıcıda kamera işlək vəziyyətdə deyilsə, aidiyyəti qurumlar bu məsələni ciddi nəzarətə götürməlidirlər. Hətta daşıyıcı şirkətin lisenziyası belə ləğv oluna bilər.

*Günel CƏLİLOVA*

# Azyaşlı məktəbliləri gecə klublarına buraxmaq kim(lər)in marağındadır...

**Qız uşaqlarının gecələr valideyn nəzarətindən kənar çölə-bayıra çıxması Azərbaycanda normal bir hal kimi qəbul edilmir. Buna nə adətlərimiz, nə də ailə dəyərlərimiz imkan verir. Milli kontekstdən yanaşsaq, "normal, ağlı başında olan qız" gecə saat 12-dən sonra evdən çölə çıxmamalıdır.**

Ancaq təəssüf ki, nəinki gənc, hətta yeniyetmə qızların da evdən çıxıb istirahət mərkəzlərinə, eləcə də gecə klub və barlarına getməsi halları müşahidə olunur. Ağrıdıcı haldır ki, bu gün bəzən valideyn məsuliyyətsizliyi və müəyyən səbəblər üzündən yeniyetmə qızlar gecə saatlarında küçədə, bayırda olurlar. Əksər hallarda gecə klublarında və ya barlarda olan yeniyetmə qızlar xoşagəlməz hallarla rastlaşırlar. Təəssüf ki, bu vəziyyətə düşən qızlar son çarəni intiharda görürlər.

Məlumdur ki, Elina adlı məktəbli qızın səs-küyə səbəb olan intiharından sonra azyaşlılarla bağlı bir neçə məqam da gündəmə gəldi. Gecə klubunda çəkilən və Elinaya aid olduğu iddia edilən fotoların yayılması ilə məktəblilərin klublara getməsi ciddi müzakirələr yaratdı. Maraqlıdır, məktəbli, yeniyetmə qızlar gecə klublarına necə buraxılırlar? Axı yeniyetmə qızlar və oğlanların gecə klublarına girişi qadağan olunmalıdır. Əksər xarici ölkələrdə gecə klubuna daxil olan şəxsin şəxsiyyət vəsiqəsinə baxılır. Əgər onun yaşı həmin məkana daxil olmağa münasibdirsə, buraxılır, yox, yeniyetmədirsə, o zaman həmin gənc içəri buraxılmır. Maraqlıdır, analoji qayda bizdə niyə tətbiq olunmur? Məktəbli yeniyetmələrin kazinolara daxil olmasına niyə icazə verilir?

**"Vəfa" Sosial İctimai Birliyinin sədri Fatimə Hacıbəyli "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, yeniyetmələrin gecə klublarına girişi qadağan olunmalıdır:** "Bu sahədə xüsusi nəzarət olmalıdır. Aidiyyəti qurumlar gecə klublarına əylənməyə gələn şəxslərin yaşına diqqət etməlidirlər. Yaşı 18-dən aşağı olan şəxslərin kazinoya girişinə qadağa tətbiq olunmalıdır".

Həmsöhbətimiz onu da vurğuladı ki, gecə klublarına tək əylənmək üçün məktəb yaşlı qızlar getmir, eyni zamanda, orada çalışanlar arasında da yeniyetmələr var: "Bu məsələ dəfələrlə müzakirə olunub. Hətta gecə klublarının bağlanması da təklif olunub. Mən də gecə klublarının bağlanmasının lehinəyəm. Ümumiyyətlə, 18 yaşına qədər uşaqlar vaxtını barlarda keçirməməli, təhsillə məşğul olmalıdırlar. Təkcə ictimai şəxs kimi yox, həm də bir valideyn kimi hesab edirəm ki, gənclər faydalı işlərlə məşğul olmalı, gənclik dövründən düzgün istiqamətdə istifadə etməlidirlər. O qıza, o oğlana sağ ol deyərəm ki, asudə vaxtını barda, diskotekada yox, idman zalında keçirir. Bu onların həyat keyfiyyətinə müsbət təsir edər. Heç bir diskoteka, bar 18 yaşında olan yeniyetməyə xeyir gətirməz. Sadəcə, pis yollara getməsini, pis vərdişlərə yiyələnməsini sürətləndirər. 17-18 yaşlarında yeniyetmə intellektual səviyyəsini artırmaq üçün çalışmalıdır. Bu yolda valideynlər də diqqətli olmalı, övladlarına düzgün istiqamət verməlidirlər".



Həmsöhbətimiz onu da vurğuladı ki, azyaşlıların bar, diskoteka kimi məkanlarda vaxt keçirmələri onların gələcək həyatlarını risq altında qoyur: "18 yaşlı uşağın bara, diskotekaya getməsi onda vaxtından əvvəl böyümək kimi fəsadlar yarada bilər. Ən böyük problem isə belə yeniyetmələrin təhsildən yayınmasıdır. Hər bir insana əyləncə cəlbedici görünür. Lakin əylənmək üçün uşaqlar zərərli vərdişlərə aludə olurlar. Alkoqol və digər içkilərdən istifadə edir, pis vərdişlərə yiyələnirlər. Narkotikdən istifadə edənlər, spirtli içki içənlər bar, diskoteka kimi yerlərdə olur və bu, yeniyetmələrə pis örnəkdir. Adətən azyaşlılar yad, pis vərdişlərin təsirinə tez düşürlər. Ən pis halda isə xəstəliklərə yoluxurlar. Bu yaş dövrü uşağın psixoloji cəhətdən tam formalaşmayan dövrüdür. Bu səbəbdən 18 yaşına çatmayan uşağın gecə klublarına, barlara getməsi heç bir halda təqdir edilmir. Diskotekaları, barları işlədən adamlar özləri azyaşlıların, yeniyetmələrin oraya girmələrinə mane olmalıdırlar. Burada valideyn diqqətli olmalı, övladına nəzarət etməlidir. Ailədə ən çox problem yaradan uşaqlar da belə uşaqlar olur. Hətta gizlin bara getmək üçün evdən pul götürürlər. Ona görə də bu, birmənalı şəkildə, tənzimlənməlidir. Düzdür, dövlət tərəfindən müəyyən işlər aparılır, amma insanlar tərəfindən də buna dəstək verilməli, həmrəylik göstərilməlidir".

*Mahmud Hacıyev: "...nəzarət işlərini tək polisin üzərinə yıxmamalıdır"*

*Fatimə Hacıbəyli: "Azyaşlıların bar, diskoteka kimi məkanlarda vaxt keçirmələri onların gələcək həyatlarını risq altında qoyur"*

**Keçmiş polis rəisi, kriminalist Mahmud Hacıyev bildirdi ki, gecə klublarına azyaşlıların daxil olması məqbul hadisə deyil.** Bu, yeniyetmələrin həyat tərzinə, psixologiyasına, xarakterinə pis təsir edir. Gecə klublarının fəaliyyətinə, yeniyetmələrin orada vaxt keçirməsinə ciddi nəzarət etməklə, məktəblərdə təlim-tərbiyəni artırmaqla belə hadisələri azaltmaq olar. Qanunsuz fəaliyyət göstərənləri bağlayın, cinayət işi qaldırın, bu öz yerində. Nəzarət etmək, kompleks tədbirlərlə yeniyetmələrin klublara getməsinin qarşısını almaq lazımdır. Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, icra hakimiyyətləri birlikdə tədbirlər həyata keçirməlidirlər. Nazirlik maarifləndirmə aparmalı, məktəblərdə nəzarəti təmin etməli, profilaktik tədbirlər görməlidir. İcra hakimiyyəti isə nəzarət işlərini tək polisin üzərinə yıxmamalıdır. Halbuki, azyaşlılar kütləvi şəkildə gecə klublarına, internet-kafelərə gedəndə, səhərə



qədər o məkanlarda vaxt keçirəndə heç kim qarışmır. Bir də görürsən deputatlar müzakirə edirlər. 3-5 deputat birbaşa deyəcək ki, gecə klublarını bağlayın. Halbuki, bunu iddia edən adamların qanunvericilikdən xəbəri olsa, belə təklif etməz. İnanın, gecə klublarını bağlasalar, yeniyetmələrin inzibati xətaları, cinayət işləri azalmayacaq, əksinə, artacaq. Oğurluqlar, narkotik, dələduzluqlar çoxalacaq. İnternet-klubu misal çəkdim. İcra hakimiyyətləri niyə nəzarət etmir ki, gecə saat 3-də 12-13 yaşlı gənc internet-klubda neynir? Nə vacibdir ki, kompyuter otaqları gecə saat 2-3-ə qədər açıq olsun. Saat 22.00-da bağlamaq olar".

*Günel CƏLİLOVA*



# "Nar" korporativ müştərilərinə ödənişsiz MiFi cihazını təqdim edir

**Ölkənin ən gənc və innovativ mobil operatoru "Nar", təqdim etdiyi yüksəkkeyfiyyətli şəbəkə, sürətli və kəsintisiz internet xidmətləri, sərfəli təklifləri ilə sahibkarlara dəstək olmağa və onların biznestələblərini ödəməyə davam edir.**

Belə ki, "Nar"ın korporativ müştərisinə çevrilən hər bir biznes sahibi ödənişsiz olaraq portativ internet daşıyıcısı olan"Nar MiFi"cihazı əldə edə billəcək. Bu cihaz abunəçilərə olduqları yerdən asılı olmayaraq hər zaman onlayn olmağa və interneti ətrafdakılarla paylaşmağa imkan verir. Eləcə də, cihazın kiçik ölçüləri və yüngüllüyü onun daşınmasını asanlaşdırır ki,bu da abunəçilərə bizneslərini daha çevik və mobil idarə etməyə kömək edir.

Mobil operator korporativ müştərisinilə yeni imkanlar, təkliflər barədə məlumatlarıbölüşmək, eləcə də əlaqələri gücləndirmək məqsədilə,növbəti dəfə 100-ə yaxın şirkətdən 250-yə qədər korporativ müştərisini film nümayişində bir araya gətirib. Filmdən sonra iştirakçılar arasında lotoreya keçirilib və qalib müştərilərə "Nar" tərəfindən xüsusi hədiyyələr verilib.

Bu ildən mobil operatorun korporativ müştəriləri üçün mövcud olan tarif paketlərində dəyişikliklər olub və yeni tariflər təqdim edilib. Tariflər hər bir müştərinin ehtiyacına uyğun tənzimlənir və fərdi yanaşma sayəsində biznes sahiblərinə ən optimal təklif təqdim edilir. Bundan başqa, korporativ müştərilər üçünyeni internet və rominq paketləri və beynəlxalq zənglər üçün bonuslar təqdim edilir.Qeyd edək ki, "Nar"-ın biznes sahibləri üçün təqdim etdiyi sərfəli təkliflər sayəsində müştərilərinin sayı artmaqdadır. Son 1 ildə mobil operatorun korporativ müştəriləri sırasına daha 600 yeni şirkət qoşulub.

"Nar" ilə korporativ tərəfdaşlıq üçün 777 telefon nömrəsi və ya business-nar@azerfon.az elektron poçt ünvanı vasitəsilə əlaqə saxlamaq olar. Daha ətraflı buradan tanış ola bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib.

Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

№ 71 (3969) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

20-22 APREL 2019-cu il



## Yer kürəsində baş verən ən böyük fəlakətin səbəbi vulkan püskürmələri imiş...

**ABŞ-ın Cincinnati Universiteti və Çinin Geoloji Elmlər Universitetinin mütəxəssisləri kütləvi "Perm qırılmasının" əsl səbəbinin vulkan püskürmələri olduğu qənaətinə gəliblər.**

"AZƏRTAC" bildirir ki, alimlər 252 milyon il yaşı olan çöküntülərdə civə izləri aşkarlayıb. Həmin metalın toplandığı kömür ehtiyatlarının yanması nəticəsində planetin atmosferinə atılan civə yağış vasitəsi ilə Dünya okeanına, sonra isə bütün dünyadakı dəniz çöküntülərinə qarışıb. Alimlər, həmçinin püskürmələrin mərkəzinin indiki Sibir ərazisində olduğunu müəyyən ediblər. Püskürmələr 100 min illər boyu davam edib, həmçinin tək vulkanlarda deyil, yer qabığındakı çatlarda da baş verib. Bundan başqa, atmosferə 3 milyon kubkilometr həcmində kül atılıb ki, bu da Yer kürəsində orta temperaturun təxminən 10 dərəcə artmasına səbəb olub. Nəticədə, qida zəncirləri pozulub və dənizlərin turşululuğu artıb, bu isə öz növbəsində dəniz növlərinin 96 faizinin, quruda yaşayan onurğalı növlərinin 73 faizinin, həşərat növlərinin 83 faizinin yox olması ilə nəticələnib. Bioloji müxtəlifliyin seyrəlməsi isə təxminən 60 min il davam edib.

## Alimlər ölmüş beyni diriltməyi bacardılar

**Yelsk Universitetinin alimləri ölmüş donuzun beynini ölüm təsdiq edildikdən 4 saat sonra diriltməyi bacarıblar.**

Beynin yenidən canlanması üçün mütəxəssislər süni qan dövranı və xüsusi zülal kokteylindən istifadə ediblər. "Nature" jurnalının məlumatına görə,alimlər xüsusi avadanlığa qoşulmuş ölmüş beyinin 4 saat sonra oksigen çatışmazlığına davamlı olduğunu və süni qan dövranına qoşulduqdan sonra kiçik kapilyarların işinin bərpa edildiyini müşahidə ediblər. Hələ ki, şüurun bütövlükdə qayıtması və beyinin tam şəkildə fəaliyyətinin bərpası mümkün olmasa da, alimlər bir müddət sonra daha böyük uğur əldə ediləcəyinə ümidvardırlar.

## Asteroid Yerə ən yaxın məsafədən keçdi



**Diametri 30 metrədək olan "2019 GC6" asteroidi ötən gün Yerə ən yaxın məsafədən keçib.**

"Trend" xəbər verir ki, asteroid Yerdən 219 min kilometr məsafədən keçib ki, bu da planetə ən yaxın cisim olan Aydan iki dəfə yaxındır. Qeyd olunur ki, "2019 GC6" asteroidi potensial təhlükəli asteroid kateqoriyasına aiddir. Bu asteroid aprelin 9-da aparılan müşahidələr nəticəsində aşkar edilib. "2019 GC6" asteroidi Yerə ən yaxın məsafədə olarkən saat 20 min kilometrdən çox sürətlə hərəkət edib.

## Siqareti tərgitmək istəyirsizsə, bu qoxuları iyləyin...

**Siqareti tərgitmək istəyən insanlar alma, vanil, limon, şokolad qoxlasalar, yenidən siqaret yandırmaq istəkləri azalacaq.**

Bu nəticədə ABŞ universitetinin alimləri öz elmi araşdırmalarında gəliblər. "Medicina.az" bildirir ki, eksperimentdə 232 siqaret çəkən kişi iştirak edib. Onlar siqareti tərgitmək fikrində deyildilər. Təcrübə zamanı onlar bir siqaret çəkir, daha sonra müxtəlif ətirləri qoxulayıblar: alma, portağal, şokolad, limon, nanə və s. 20 saniyə sonra iştirakçılardan yenidən siqaret yandırmaq istəyinin nə dərəcə olması soruşulub. İştirakçıların bir qismi ətirlərdən sonra siqaret istəyinin 80% -ə endiyini qeyd ediblər. Beləcə, onlar 10 dəqiqə ərzində konteynerdə olan müxtəlif xoş ətirləri qoxulamaqla, hər dəfə siqaret yandırmaq istəklərinin artıb-azalmasını ölçüblər. Tədqiqatın müəllifi Maykl Sayett bildirib ki, xoş ətirlər beyində nikotin ətrinə olan qıcığı, istəyi azaldır, siqaret çəkmək istəyindən yayındırır. Ona görə də siqareti tərgitmək istəyənlər bu metoddan istifadə edə bilər. Bunun üçün onlarda siqarətə istəyi azaldan bu 5 qoxudan birini seçib, hər siqaret çəkmək istəyəndə, o qoxunu burnunuza yaxın tutsanız, siqaret yandırmaq istəyinizin azaldığını görəcəksiniz.

**Elan**

### "Təbriz" firmasına aid sənədləri tapan şəxsi mükafat gözləyir

Bakının Nizami rayonu, Bəhruz Nuriyev küçəsi 57 ünvanında yerləşən "Təbriz" firmasına aid bütün sənədlər - möhür, ştamp, şəhadətnamə, çıxarış, VÖEN, nizamnamə və firmaya aid layihələr itib. Həmin sənədləri tapan şəxslərdən aşağıdakı telefon nömrəsinə zəng vurub xəbər verməleri xahiş olunur:

**070/314-9370 (Bəxtiyar Əmirov)**

**Sənədləri tapan şəxsi mükafat gözləyir.**

Şəki rayonu, Cəyirli kənd sakini İsmayılov İsmayıl Əsədullah oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 240 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Məmmədova Camalə Ənvər qızının adına, Bakı şəhəri, Əzizbəyov rayonu, Türkan qəsəbəsi, Xanlar küçəsi, ev 53 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Rəhmanov Ramil Fəxrəddin oğlunun adına, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, ev 54, binanın 1-ci girişində 15-ci mərtəbədə 114.7 kv.m. olan 38 nömrəli mənzilə verilmiş çıxarış və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Məmmədova Lalə Həsən qızının adına, Bakı şəhəri, Səbail rayonu, 7-ci Bayıl küçəsinə aid torpağın çıxarışı itdiyi üçün etibarsız sayılır.

Quliyev Rza Əli oğluna ADNSU-nun nəzdində olan Bakı Energetika Kolleci tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Səfər, səyahət və ya ezamiyyətdə olanları uğur gözləyir. İşgüzar ünsiyyət çevrəsini genişləndirə bilərsiniz. Təmaslarda səmimilik, nikbinlik qarşı tərəfin rəğbətini qazanmağa yardım edəcək.



**Buğa** - Nüfuzlu insanlardan biri ilə təmasları aktivləşdirmək və gördüyünüz işə diqqəti cəlb etmək üçün əlverişli vaxtdır. Dəvət aldığınız tədbirlərə qatılın. Bacarıq, bilik və imkanlarınızı nümayiş etdirin.



**Əkizlər** - Maraqlarınızın təminatı üçün gərəkli bildiyiniz addımları atın. Astagəl və süst olsanız, önəmli məqamlardan biri diqqətinizdən yayınacaq. Başladığınız işin mühüm ünsürünü ön plana çəkin.



**Xərçəng** - Bərabər variantlar arasında münasibini seçin, onu reallaşdırmaq üçün gərəkli addımlar atın. Hadisələrin intensivliyi artır, görülәsi işlər çoxalır. Səhhətinizə fikir verin. İnfeksiya riski var.



**Şir** - Çətin, qarışıq, amma çoxdan reallaşdırmaq istədiyiniz işlərdə irəliləyişlər vəd edən zamandır. Məişət qayğılarının həllinə başlayaraq tapşırılan işləri və göstərişləri unutmayın.



**Qız** - Ünsiyyət və əməkdaşlıq üçün mürəkkəb zamandır. Mürəkkəb suallara cavab aramağın yolu qarşılıqlı güzəştlərdən keçir. Yaxın ətrafınızdakı insanların hər biri öz işi ilə məşğuldur. İlkin təəssüratlara aldanmayın.



**Tərəzi** - Enerjiniz çoxdur, amma ondan məhsuldar şəkildə yararlanın. Ətrafınızdakı insanlara qarşı sərt mövqe tutmayın. Belə davranış münasibətlərdə harmoniyaya səbəb olmayacaq.



**Əqrəb** - Təəssüratlar bol, hadisələr çoxdur. Yaşananların təhlili və dəyərləndirilməsi çox vaxt aparacaq. Başqalarının problemləri ilə məşğul olaraq qarşınızda duran məqsədləri reallaşdırın.



**Oxatan** - Yeni tanışlıqlar güclü emosiyalara səbəb olacaq. Problemlərin həllinə yaradıcı yanaşmayın. Yaşam və fəaliyyət arealını qaydaya salın. Alış-verişdə bədxərclik etməyin.



**Oğlaq** - Günün ilk yarısında planlarınızda arzuolunmaz dəyişikliklər yaşana bilər. Müəyyən mövzu aktuallığını itirəcək. Təcili qərarlar verin, sürətli olun. Təşkilati tədbirlər, fəaliyyətə başqa adamların cəlb edilməsi istisna deyil.



**Dolça** - Ziddiyyətli maraqlar və niyyətlər qarışıq durum yarada bilər. Başladığınız işi yarımçıq qoymayın, gərginliyə qapılmayın. Eyni vaxtda bir neçə işi görməyə çalışsanız, ciddi çətinliklərlə qarşılaşa bilərsiniz.



**Balıqlar** - Günün ilk yarısını kiçik problemlərin həllinə, qayğıların yerinə yetirilməsinə həsr edin. Sizə təzyiq göstərmələrinə imkan verməyin. Başqasının məsuliyyətini paylaşmayın. Sənədlərdə qaydaya fikir verin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Xərçəngə qarşı dərman kəşf edildi - Qarışqalar sayəsində



**Moskva Dövlət Universitetinin bir qrup mütəxəssisi qara qarışqaların bağırsaqlarında təbii antibiotik formalaşdıran bakteriyalar aşkar edib.**

"Trend" bildirir ki, aparılan müşahidələr nəticəsində məlum olub ki, həmin bakteriyalar xərçəngə qarşı xüsusiyyətlərə malik nibomitsin antibiotikləri yaradır. Nibomitsin ilk dəfə 1955-ci ildə aşkar olunsa da, bu təbii antibiotikin xüsusiyyətləri zəif öyrənilib.

Bununla belə, bir sıra müşahidələr nəticəsində həmin maddənin ağciyərdə yeni yaranan xərçəng şişlərinin qarşısını aldığı məlum olub.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.